Xalqın qəzeti!
# Xalq qəzeti
№ 280 (30396) 22 dekabr 2023-cü il, cümə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## Günün hadisəsi

### Xankəndidə futbol təntənəsi




Səhifə ⇨ 2

# Xankəndi: “Biz buraya qayıtmalı idik və qayıtmışıq”

## Prezident İlham Əliyevin Şuşa, Xocalı və Xankəndiyə səfəri

### 23 binadan ibarət ilk yaşayış kompleksi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılır.

Dövlətimizin başçısı yaşayış kompleksində hazır mənzillərə baxdı.

Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriy-



yəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Diqqətə çatdırıldı ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

*AZƏRTAC*

# Yeni layihələr Azərbaycanın tranzit potensialını müasirləşdirir



**Bu gün Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşması prosesinə fəal şəkildə qoşulur, eləcə də ölkənin tranzit potensialının artırılması istiqamətində mühüm addımlar atılır. Bütün bu tədbirlər isə yük daşımalarında yüksək göstəricilərin əldə edilməsi ilə nəticələnir.**

Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar üzrə həyata keçirilən tədbirlər sayəsində Azərbaycan daşıyıcılarının bazar payı son illər ərzində davamlı olaraq artıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, 2022-ci ildə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən 221 min 841 ikitərəfli daşıma həyata keçirilib. Bu daşımaların 101 min 843-ü Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib ki, bu da ümumi daşımaların 45,91 faizini təşkil edib.

Cari ildə isə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən, ümumilikdə, 256 min 653 daşıma həyata keçirilib. Bu daşımaların 135 min 441-i Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib ki, bu da ümumi daşımaların 52,77 faizini təşkil edib. 2023-cü ilin 9 ayı üzrə avtomobil nəqliyyatı xidmətlərinin ixracının ölkənin qeyri-neft ixracına nisbəti 8,9 faizə çatıb.

*(ardı 7-ci səhifədə)*

# “Alma-Ata Bəyannaməsi”, “Meğri hədiyyəsi” və Ermənistan üçün manipulyasiya



**Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsindən danışıb. O, yenə üç prinsip üzərində danışıb. Müsbət məqam budur ki, erməni baş nazir daha Qarabağ ermənilərinin bölgəyə qayıtmalarından, onların hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq təminatlardan danışmır. Sözügedən məsələ Ermənistanın sülh gündəliyindən çıxıb. Amma tam çıxıbmı?**

N.Paşinyanın sözlərinə görə, Ermənistan qarşıdakı danışıqlar zamanı Azərbaycanın Avropa İttifaqının vasitəçiliyi ilə razılaşdırılmış üç prinsip əsasında sülh müqaviləsi imzalamağa razı olub-olmadığını aydınlaşdırmağa çalışacaq. Göründüyü kimi, baş nazir vurğunu Bakının həmin prinsiplərlə razılaşmama ehtimalı üzərinə qoyur. Bəs, nəyə görə erməni baş nazir ehtiyatlanır? Hansı səbəbdən onda Azərbaycanın sülh sazişinə imza atmayacağına dair tərəddüd var? Hesab edirik ki, Nikol açıqladığı fikirlərlə suallara, fərqinə varmadan cavab verir.

N.Paşinyan bildirir ki, haqqında söz açdığı üç prinsip bu il mayın 14-də və iyulun 15-də Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin, Azərbaycan Prezidenti İlham Əliyev və özünün üçtərəfli görüşləri nəticəsində razılaşdırılıb. Bu prinsiplərdən birincisi budur: Ermənistan və Azərbaycan Ermənistanın ərazisinin 29800 kvadratkilometr, Azərbaycanın ərazisinin isə 86600 kvadratkilometr olduğunu qəbul edərək, bir-birilərinin ərazi bütövlüklərini tanıyırlar.

İlk baxışdan, bu deyimdə elə bir şey yoxdur. Ancaq Nikolun ikinci prinsip kimi 1991-ci ilin Alma-Ata Bəyannaməsindən söz açması və sənədi delimitasiya prosesinin əsası adlandırmasında fərqli anlam var.

*(ardı 4-cü səhifədə)*

# İran Prezidenti Paşinyana nə deyib?

**Ermənistanın baş naziri Nikol Paşinyanla İran Prezidenti İbrahim Rəisi arasında telefon danışığı olub. Böyük ehtimalla, təmas birincinin istəyi ilə gerçəkləşib. Adətən, qarşı tərəf təşəbbüs göstərəndə, erməni baş nazirin aparatı bunu xüsusi vurğulayır. Ancaq indi belə bir hal yoxdur.**

Bəli, indiki həssas məqamda Paşinyanın Rəisi ilə telefon danışığına ehtiyac duyması maraq doğurmaya bilməz. O da maraqlıdır ki, onların arasındakı söhbətlə bağlı İran və Ermənistan tərəfindən yayılmış məlumatlar fərqlidir. Ermənistanın məlumatı kiçik həcmlidir, ümumi xarakter daşıyır və orada yalnız ölkələrin liderlərinin İrəvan–Tehran münasibətlərini müzakirəyə çıxardığı vurğulanır. Ancaq İran Prezidentinin mətbuat xidmətinin açıqladıqları, kifayət qədər, detallı təsir bağışlayır və hiss olunur ki, tərəflər müzakirə dairəsini geniş götürüblər.

İran və Ermənistan liderlərinin nəzərdən keçirdikləri mövzulardan birincisi Cənubi Qafqazda kommunikasiyaların açılmasıdır. İslam respublikasının lideri bildirib ki, Tehran regiondakı dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipi əsasında mövcud istiqamətdə atılacaq istənilən addımı dəstəkləyir. Əlbəttə, İran hər zaman eyni mövqedə olub.



*(ardı 6-cı səhifədə)*

# Uduzmağa vərdiş edənlərin xəyalı

**Qarabağdan barıt qoxusu çəkilməmiş yenidən bölgəni hərbi qarşıdurma meydanına çevirmək istəyənləri nə sülh, nə əmin-amanlıq, nə də ki, qonşuların barış içində birgəyaşayışı düşündürür. Məlum güclərin məqsədi Cənubi Qafqazda özlərinin maraqlarının təminatına cavab verə biləcək hərbi-siyasi durumu formalaşdırmaqdır.**

Üzdə ermənilərə dəstək verdiklərini “nümayiş etdirən” həmin güclər Qərbdən və Şərqdən sanki İrəvanı silahlandırmaq yarışına girişiblər. Burada söhbət, ilk növbədə, Fransa və Hindistandan gedir. Rəsmi İrəvan məlum səbəblərdən Rusiya silahından imtina etdikdən sonra, “bazarı” boş görən bu iki dövlət son bir il ərzində Ermənistanı




“hərbi donor” qismində müxtəlif təyinatlı döyüş texnikası, HHM sistemləri, raket kompleksləri ilə təchiz etməyə başlayıb.

Dehli və İrəvan arasında hərbi-texniki əməkdaşlığa dair bir neçə müqavilənin imzalandığı, Ermənistana göndərilən silah-sursatın növləri barədə oxucuları məlumatlandırmışdıq. Bu iki ölkənin indiyədək əsasən müdafiə xarakterli hərbi işbirliyinin hazırda daha geniş miqyas alaraq hücum silahları ilə bağlı sazişə keçdiyi imzaladıqları məlum olub.

*(ardı 6-cı səhifədə)*

# Şuşanın Qarabağ küçəsində 10 bina tikilir



**Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri ilə tanış olub.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, şəhərin mərkəzi küçəsinin layihəsi, ümumilikdə, 10 bina olmaqla dövlət–özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Tikilməkdə olan binalarda artıq dəmir-beton konstruksiya işləri yekunlaşmaq üzrədir. Binalarda fasad və dam örtüyü işlərinə tezliklə başlanılacaq. Həmçinin layihə çərçivəsində Sadıqcanın evinin bərpa işlərinə də başlanılıb.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqət mərkəzində saxlanılır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilir.

# Aşağı Gövhər Ağa məscidində bərpa işləri davam edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olub.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq Aşağı Gövhər Ağa məscidində aparılır. Aşağı Gövhər Ağa məscidi XIX əsrdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Tarixi mədəniyyət abidəsi olan Aşağı Gövhər Ağa məscidi işğal dövründə ermənilər tərəfindən vandalizmə məruz qalmışdır. Ötən müddətdə yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə işləri aparıblar. Buna uyğun olaraq "PAŞA Holdinq"in dəstəyi ilə məsciddə bərpa-təmir işləri həyata keçirilir. Bərpa işləri Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislərin nəzarəti ilə aparılır. Ötən müddətdə məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilib. Məsciddə bərpa-təmir işləri davam edir.

Qeyd edək ki, Heydər Əliyev Fondu Şuşada bir sıra tarixi mədəniyyət abidələrimizin, o cümlədən, məscidlərin bərpa və tikinti işlərini həyata keçirir. Artıq bərpası başa çatmış Yuxarı Gövhər Ağa, Saatlı məscidləri bu ilin may ayında istifadəyə verilib. Hazırda Heydər Əliyev Fondu tərəfindən Şuşada Mamayı və Çöl Qala məscidlərində bərpa işləri, o cümlədən Yeni Şuşa məscidinin tikintisi davam edir.

# Daşaltıda kənd məscidi tikilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa rayonunun Daşaltı kənd məscidində tikinti işlərinin gedişi ilə tanış olub.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır.

# Prezident Dağdağan kəndində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Xocalı rayonunun Dağdağan kəndində olub.**

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

Qarabağ dağ silsiləsinin ətəyində yerləşən Dağdağan kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində kənd separatçılardan təmizlənib.

# Xankəndidə futbol təntənəsi

*Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Xankəndidə "Qarabağ"–MOİK qarşılaşmasına baxıblar*

## Dövlətimizin başçısı şəhər stadionunda çıxış edib



**Bu gün xalqımız tarixi hadisəyə şahidlik edir. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları qarşılaşıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı



– Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq.

Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz – bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən, Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. **Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir!** Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ–Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

*(ardı 3-cü səhifədə)*

# Xankəndidə futbol təntənəsi

## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Xankəndidə “Qarabağ”–MOİK qarşılaşmasına baxıblar









*(əvvəli 1-ci səhifədə)*

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl – İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl – sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!

***

Sonra ulu öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş olundu.

Stadiona daxil olan dövlətimizin başçısı futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyevin topa rəmzi toxunuşundan sonra “Qarabağ”–MOİK görüşü başladı.

Maraqlı idman mübarizəsi şəraitində keçən görüş “Qarabağ” komandasının 1:0 hesablı qələbəsi ilə başa çatıb. “Qarabağ”ın futbolçusu Nəriman Axundzadənin matçın əsas hissəsinə əlavə olunmuş vaxtın 5-ci dəqiqəsində vurduğu qol oyunun taleyini həll edib. Bununla da N.Axundzadə işğaldan azad olunmuş ərazilərdə 30 ildən sonra keçirilən ilk futbol matçında fərqlənən hücumçu kimi tarixə düşüb.

## Prezident İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb





**Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb.**

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

– Xoş gəlmisiniz Xankəndiyə!

İdmançılarla ənənəvi görüşü bu il Xankəndidə keçiririk. Bunun çox böyük mənası var. Sizi, ilk növbədə, əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırmısınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz.

Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm.

Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını – uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi – Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Mən sizi buraya dəvət etməklə sizə öz münasibətimi, hörmətimi bildirmək istəmişəm. Bu görüşü biz Bakıda da keçirə bilərdik. Ancaq hesab etdim ki, bu görüşün burada keçirilməsi və sizə bu yüksək mükafatların burada verilməsi tam ədalətli olacaqdır. Bir daha təbrik edirəm.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

* * *

Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu il də idmançılarımızı sevindirib. Belə ki, dekabrın 20-də Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 1 nəfər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”, 17 nəfər “Tərəqqi” medalı ilə təltif edilib. Bundan başqa, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə 3 nəfərə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adı verilib. Həmçinin ölkə idmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 4 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təyin edilib. İdman ictimaiyyətinin 29 nümayəndəsinə isə mənzil verilib.

***AZƏRTAC***

## MSK-nın iclasında daha altı nəfərin prezidentliyə namizədliyi təsdiqlənib



**Dekabrın 21-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Əvvəlcə Komissiyanın 2023-cü il 16 dekabr tarixli iclasının protokolu təsdiq olunub.**

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliklərin irəli sürülməsi ilə əlaqədar məsələlərə baxılıb. Namizədliyi özü tərəfindən irəli sürülmüş Zahid Məhərrəm oğlu Orucun, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin, namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin və namizədliyi Milli Cəbhə Partiyası tərəfindən irəli sürülmüş Razi Qulaməli oğlu Nurullayevin namizədliyinin irəli sürülməsi təsdiq edilib.

Komissiya prezidentliyə namizədlərinin irəli sürülməsi təsdiq olunan siyasi partiyalar, o cümlədən öz təşəbbüsləri ilə namizədliklərinin irəli sürülməsi təsdiq edilən şəxslər tərəfindən təqdim olunan səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri də qeydə alıb.

Beynəlxalq təşkilat və xarici ölkə diplomatik korpus nümayəndələrinin, media qurumları təmsilçilərinin iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə baxılıb.

***XQ***

## AzQAC İlham Əliyevin namizədliyini dəstəklədi

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin dekabrın 21-də keçirilən növbədənkənar XXVI Baş Məclisinin iştirakçıları gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı bəyanat qəbul ediblər.**



“...Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 350 min üzvü və 25 minə yaxın könüllüsü var. Onların hamısının yekdil mövqeyi belədir ki, Azərbaycan əldə etdiyi bu möhtəşəm uğurları davam etdirməli, möhkəmləndirməlidir. Biz bu dəfə də Prezidentliyə namizəd, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü olan İlham Əliyevi müdafiə edirik, onunla bir yerdə olduğumuzu elan edirik. Azərbaycan ayparaçıları 2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkilərində hər bir vətəndaşı fəal iştirak etməyə və məhz İlham Əliyevə səs verməyə çağırır.

Biz öz seçimimizi etdik! Azərbaycanı qələbədən-qələbəyə aparan milli lider – İlham Əliyev bu seçkilərin qalibi olmağa hamıdan çox layiqdir, bu, onun tam haqqıdır!”, – deyə bəyanatda bildirilir.

***XQ***

# “Alma-Ata Bəyannaməsi”, “Meğri hədiyyəsi” və Ermənistan üçün manipulyasiya

## Nikol Paşinyan reallıqları necə təhrif edir?

*(əvvəli 1-ci səhifədə)*

Anlamı qüvvətləndirən isə Paşinyanın dilə gətirdiyi fikirlərdir: “Alma-Ata Bəyannaməsi Ermənistanın titul ərazisi adlanan ərazinin 29800 kvadratkilometr olduğunu deməyimizin əsas səbəbidir. Çünki Ermənistan Respublikası Ermənistan SSR-in müstəqilliyi ilə yaranıb. Başqa sözlə, Ermənistan SSR ərazisində Ermənistan Respublikası yarandı. Alma-Ata Bəyannaməsinə əsasən, onu imzalayan 12 respublika, o cümlədən, Ermənistan və Azərbaycan bir-birlərinin ərazi bütövlüklərini, sərhədlərinin toxunulmazlığını və suverenliklərini tanıdıqlarını qeyd etdilər”.

N.Paşinyan onu da bildirir ki, delimitasiya prosesində 1974–1990-cı illərdə Sovet İttifaqı Silahlı Qüvvələrinin Baş Qərargahının xəritələrindən istifadə edilməlidir. Bu isə sən demə, ərazi bütövlüyü və suverenlik prinsipinin daha da inkişaf etdirilməsi ilə əlaqədardır. Deməli, baş nazirin, necə deyərlər, açar sözləri var – SSRİ-nin yaranması, Ermənistanın SSRİ-yə daxil olması, SSRİ-nin dağılması və 1974–1990-cı illərin xəritələri. Sual olunur: Alma-Ata Bəyannaməsi, bir növ, ehkamlaşdırılırsa, nə üçün 1974–1990-cı illərin xəritələri əsas götürülməlidir? Axı, prinsipcə, sənəd hər şeyi öz yerinə qoymalıdır. Deməli, bəyannamənin fövqəladə üstünlüyü yoxdur.

***

Nəzərə alaq ki, Alma-Ata Bəyannaməsində Ermənistanın ərazisinin 29800 kvadratkilometr olduğu vurğulanmır. Orada heç Azərbaycanın ərazisinin də 86600 kvadratkilometrdən ibarətliyi əksini tapmır. Sənəddə, ümumən, ərazi bütövlüyü və suverenliyin qarşılıqlı şəkildə tanınmasından söhbət gedir. Yəni, hansı ərazi tanınacaq, müəyyən deyil. Bu isə o deməkdir ki, Ermənistanın baş nazirinin rəqəmlərdən danışarkən, Alma-Ata Bəyannaməsinə söykənməsində məntiq yoxdur. Ancaq Nikolun məntiqsizliyini sübuta yetirən digər cəhətlər də var.

***

N.Paşinyan bəlkə özü də hiss etmədən maraqlı məqama toxunur. Onun nəzərincə, ərazilərin müəyyənləşməsindəki başlıca prinsip Alma-Ata Bəyannaməsidirsə və sənəd müttəfiq respublikaların SSRİ-yə qoşularkən malik olduqlarının Sovetlər Birliyinin süqutundan sonra da özlərində saxlanılmasını əsas götürürsə, o zaman 1974–1990-cı illərin xəritələri nə üçündür? Alma-Ata Bəyannaməsinə istinad varsa, sadə məntiq SSRİ-yə daxilolma xəritəsinin nəzərə alınmasını diktə edir. Çünki bəyannamə ittifaqdan ayrılmanı təsdiqləyən sənəddir. Yəni, SSRİ-dən ayrılma olduğu kimi, ora qoşulma da başlıca məsələ kimi nəzərə alınmalıdır. Nəzərə alınmır və Paşinyan elə təəssürat yaradır ki, sanki Ermənistanın SSRİ-yə daxil olarkən malik olduğu ərazi 29800 kvadratkilometr olub.

***

Alma-Ata Bəyannaməsində respublikaların ərazilərinin sahəsi ilə bağlı konkretlik yoxdursa və konkretliyi olmayan sənədə istinad varsa, o zaman Azərbaycan SSRİ-yə qoşularkən malik olduğu ərazilərin üzərində dayanmalı deyilmi? Dayanmalıdır və dayanacaqsa, deməli, erməni baş nazirin yaratdığı təəssürat reallıqdan uzaqdır. O anlamda ki, Ermənistan SSRİ-yə 29800 kvadratkilometrlə qoşulmamışdı. Bu yerdə həm də Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldan söz açaq. Məhz həmin yol 1923-cü ildə Azərbaycan ərazisi idi və orada Meğri rayonu yerləşirdi. O rayon ki, şəhər mərkəzi ilə birlikdə 1929-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi erməni Levon Mirzoyan tərəfindən Ermənistana bağışlanıb. Bəli, keçmiş adı “Mığrı” olan Meğri Azərbaycanı Naxçıvanla birləşdirən yeganə dəhliz idi. 1974-cü ilədək isə oranın qanunsuz şəkildə Ermənistana verilməsi xəritələrdə yer almayıb. Buna görə də Nikol sərhədlərin dəqiqləşməsindən söz düşəndə həmin ildən əvvələ deyil, sonraya üz tutur. Daha doğrusu, sonrakı dövrün xəritələrinə.

***

Paşinyanın üzərində dayandığı üçüncü prinsip isə qarşılıqlılıq və bərabərlik, ölkələrin yurisdiksiyasına və suverenliyinə hörmət prinsipinə əsaslanaraq, regional kommunikasiyaların açılmasıdır. Yəni, erməni baş nazir demək istəyir ki, Azərbaycan tərəfinin Naxçıvan xüsusunda “Azərbaycandan Azərbaycana asan yol” məntiqi keçərsizdir.

Beləliklə, N.Paşinyanın Alma-Ata Bəyannaməsinə söykənmiş əsaslandırmasının heç bir əhəmiyyətinin olmadığını vurğuladıq. Üstəlik, onun tarixi təhrif etdiyini də. Hələ bir sual da var: nə üçün Ermənistan SSRİ-dən əlavə ərazi, Azərbaycan ərazi itkisi ilə çıxmalı idi? Hər halda, L.Mirzoyanın ərazi peşkəşinin Sovetlər Birliyinin yaranmasından altı il sonra gerçəkləşdiyi ortadadır. Hazırda Azərbaycan dövlətinin Naxçıvana yolda heç bir gömrük-keçid və sərhəd nəzarətinin tətbiq edilməməsi tələbi həm də elə bundan qaynaqlanır. Ona görə Prezident İlham Əliyevin Naxçıvana asan yolun Azərbaycanın legitim hüququ olduğunu vurğulamasında dərin məntiq, ən əsası isə ilahi ədalət var.

***

Dövlətimizin başçısı ölkəmiz tərəfindən Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə təhdidin, ərazi iddiasının olmadığını da diqqətə çatdırıb. Paşinyan isə məsələni qabartmaqla, faktiki olaraq, Azərbaycanın Naxçıvana asan yol məntiqi ilə razılaşmadığını ortaya qoyur. O zaman onun hansı sənədi əsas götürməsinin heç bir anlamı yoxdur. Çünki Nikol öz imzasına əhəmiyyətsiz yanaşmış qeyri-ciddi biridir. Söhbət Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından gedir. Nəzərə alaq ki, bəyanatın doqquzuncu bəndi Naxçıvan yol xüsusunda İrəvanın məsuliyyətini müəyyənləşdirir. Belə olan halda suallar yaranır: Nə üçün delimitasiya prosesində 1974–1990-cı illərin xəritələri əsas götürülməlidir? Yalnız ona görə ki, ən son xəritələr onlardır? Axı, prinsipcə ən sonda Paşinyanın hazırda önəm vermədiyi insan olub.

Bəli, Nikolun istər Alma-Ata Bəyannaməsinə istinadı, istərsə də Azərbaycan–Ermənistan sərhədlərinin delimitasiyasında 1974–1990-cı illərin xəritələrini əsas götürməsi Azərbaycanın Naxçıvana asan yol istəyinə qarşı çıxmaqdır. İrəvanın hər vasitədən istifadə edərək, Bakıya əks mövqe tutmaq əzminin mövcudluğunu nəzərə alsaq, kim təminat verə bilər ki, Alma-Ata Bəyannaməsi də bunun üçün alətə çevrilməyəcək? Bəs, necə ola bilər ki, sənəd ölkəmizə qarşı istifadə edilsin?



***

Yada salaq ki, Alma-Ata Bəyannaməsi 1991-ci il dekabrın 21-də imzalanıb. Həmin il dekabrın 10-da Qarabağda azərbaycanlıların boykot etdikləri və yalnız ermənilərin qatıldıqları referendum keçirildi. Referendumun nəticəsinə görə, bölgənin Azərbaycandan ayrıldığı və “müstəqilliyi” qərarı çıxarıldı. Bundan əvvəl, yəni 1991-ci il noyabrın 26-da isə Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunmuşdu. Həmin qanun üzrə “Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və “Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında” Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılmışdı. Belədə təminat varmı ki, Azərbaycan Alma-Ata Bəyannaməsinə uyğun olaraq, Ermənistanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirsə, İrəvan Qarabağ avantürasını davam etdirməyəcək? Məsələn, Ermənistan rəhbərliyi deyə bilər ki, “referendum” Alma-Ata Bəyannaməsindən əvvəl olmuşdu və bəyannamə Qarabağı ayrıca müstəqil subyekt nəzərdə tutur. Axı, indinin özündə də Ermənistanda Qarabağ müharibəsini Qarabağ–Azərbaycan savaşı adlandıranlar qalmaqdadır. Elə həmin Paşinyan sentyabrın 19-da keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən “Qarabağın seçkili hakimiyyəti var” kimi sərsəm ifadə işlətmişdi. Özü də Praqada və Brüsseldə Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanıdığını bildirdikdən sonra. Təxminən belə bir mənzərə formalaşmışdı: Ermənistan Qarabağı Azərbaycan kimi tanıyır, qalan məsələlər Qarabağla Azərbaycan arasındadır.

***

Deməli, Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə məhdudlaşmaq olmaz. Çünki mövcud xüsus elə həm də Alma-Ata Bəyannaməsinə əsasən mübahisələndirilmək təmayülünü qorumaqdadır. Belə nəticəyə gəlirik ki, Ermənistan rəsmən Qarabağla bağlı Azərbaycana qarşı heç bir iddiasının yoxluğunu bildirməlidir. Mövcud məqam sülh müqaviləsində əksini tapmalıdır. Və deməli, Ermənistanın Alma-Ata Bəyannaməsi əsasında növbəti manipulyasiyasına yol verilməməlidir. Bu səbəbdəndir ki, rəsmi Bakı, çox doğru olaraq, sərhədlərin delimitasiyasının real şəkildə aparılmalı olduğunu qabardır. Real əsaslar nədən ibarətdir, onların müəyyən hissəsi barədə artıq söz açdıq. Əlbəttə, hələlik üzərinə gəlmədiyimiz məsələlər də var.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**Replika**

# Qoç döyüşündə çəpişin nə işi var?

## Yaxud “qırmızı kart” almış topdaşıyanın yenidən meydana girmək həvəsi



**Bu oyun uzun çəkdi, amma nəticəsi əvvəlcədən bəlli idi. Ümumən, Cənubi Qafqazda böyük oyunlar gedirdi. İştirakçıların kontingenti kimi, ssenariyə görə səhnəyə çıxarılan oyunçuların niyyəti də rəngarəngliyi ilə seçilirdi. Otuz il idi ki, hərbi teatr meydanında cövlan edən böyük və təcrübəli “sənətkarlarla” yanaşı, hərdən onların dəsmal daşıyanları, suflyorları da auditoriyanın gözünə görünürdü. Artıq oyun bitib, pərdə də endirilib.**

Hayların bir Samveli var. Xankəndidəki gorbagor olmuş separatçı rejimin qondarma “təhlükəsizlik şurasının katibi”, ara qarışanda dabanına tüpürüb İrəvana qaçanlardan birincisi olan Samvel Babayanı deyirik. İndi o, Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi rəsmən tanıyan və Bakı ilə sülh sazişi imzalamaq istəyən İrəvan hakimiyyətinə qarşı çıxır. Həmin fərari və “dərinzəkalı” siyasətçi olan məxluq iddia edir ki, əgər iki ölkə arasında sülh sazişi imzalansa, müharibə yenidən başlanacaq. Babayan özünün havadan kəşf etdiyi “strateji tezisini” əsaslandırmağa çalışır: “Ermənistan hökuməti sülh müqaviləsinin mətnini elə hazırlayır ki, 20-25 ildən sonra mənim nəvələrim yenidən müharibəyə getməli olacaq. İrəvanda oturanlar elə bilirlər ki, Bakı ilə sülhə gedirlər, amma, bu, sülh yox, müharibə layihəsidir. Sadəcə olaraq, bu layihəni nəsildən-nəslə ötürürlər. Yüz il əvvəl baş vermiş hadisələrə görə bu gün Türkiyə ilə münasibətlər qurmaq istəyənləri satqın adlandırırlar. Xaricdəki diasporumuz mövcud iqtidarı qəbul etmir”.

Cənubi Qafqazda hələ də davam edən siyasi oyunların heç vaxt iştirakçısı olmayan hayların keçmiş başıbəlalı “təhlükəsizlik naziri”, hətta Azərbaycanı hədələməkdən belə çəkinmir. Onun iddiasına fikir verin: “Əgər Qarabağ ermənilərinə “muxtariyyət” verilməsə, bölgədə heç vaxt sülh olmayacaq və müharibə yenidən alovlanacaq”.

Hansı məzhəbə qulluq etdiyi bəlli olmayan (o, bir il əvvəl gah Paşinyanı dəstəkləyirdi, gah da Xankəndidəki xunta rejiminin tərəfini saxlayırdı) Samvel yeni müharibənin alovlanacağı vaxtı da dəqiq göstərir: 20 il sonra! Axı Paşinyan həmin Babayandan bir il bundan əvvəl Qarabağdakı separatçıların arasına nifaq salmaq, qondarma “dqr” rejimini və “artsax” ideyasını nəzərə götürməkdən ötrü maşa kimi istifadə edirdi. Bəs indi necə oldu ki, o, baş nazirə düşmən kəsildi? Çox güman ki, Samvel Babayanın Paşinyan hökumətini tənqid atəşinə tutması hazırda İrəvan ətrafında tum çırtlayan separatçılar arasında özünü “Qarabağ ermənilərinin gələcəyini düşünən”, “artsax ideyasını ölməyə qoymayan” lider kimi göstərmək niyyətindən irəli gəlir. Harada, kimə qarşı və hansı oyunu oynadığını kəsdirə bilməyən psevdopolitoloq babayanların dövrü arxada qaldı. Artıq oyunun arbitri var və qaydaları da o müəyyənləşdirir.

Bəli, Bakı böyük güclərin əvəzedicisiz “döyüşdüyü” Qarabağ oyununun mürtəce qaydalarını dəyişməyi bacardı. Bu meydanda əsl oyunçunun kim olduğunu tək iştirakçılara deyil, beynəlmiləl “tamaşaçı kütləsinə” də göstərdi. Başqa cür ola da bilməzdi. Çünki biz meydan sahibləri idik. Ermənilərin boyuna isə, taleyin ironiyası ilə, bu meydanın kənarında dayanıb, topdaşıyan kimi qara işi yerinə yetirmək biçilmişdi. Amma finalda qırmızı vərəqə alıb stadiondan birdəfəlik kənarlaşdırılan da topdaşıyan oldu. Axı, qoç döyüşündə çəpişlərə yer ayrılmır.

***İ.HƏSƏNQALA***
***XQ***

---

# Azərbaycan özünü xarici təsirlərdən qoruyan ölkədir

**“Azərbaycan Prezidenti İlham Əliyev ölkədə növbədənkənar prezident seçkiləri təyin etdi. Bu, təbii ki, bir sıra siyasi məsələlərlə bağlı qəbul edilmiş ciddi bir qərardır. Eyni zamanda, 2024-cü ildə Cənubi Qafqaz uğrunda mübarizə aparan bəzi dövlətlərdə də prezdent seçkiləri keçiriləcək. Beynəlxalq təcrübədə belə hallara çox təsadüf olunur ki, prezdent seçkiləri ərəfəsində böyük dövlətlər özlərinin nüfuz dairələri hesab etdikləri ölkələrə təzyiq və təhdidləri çoxalır. Məncə, növbədənkənar prezdent seçkilərinin ölkəmiz üçün əsas əhəmiyyəti böyük dövlətlərin Azərbaycanın daxili işlərinə müdaxilə imkanından məhrum edilməsidir”.**



Bu fikirləri “Xalq qəzeti”nə Ümid Partiyası Mərkəzi Aparatının rəhbəri, politoloq Taleh Əliyev növbədənkənar prezident seçkilərini şərh edərkən dedi.

Taleh Əliyev xatırlatdı ki, xeyli vaxtdır, Prezdent İlham Əliyev ölkəmizdə dərin siyasi islahatların aparılacağı anonsunu verir:

– “2024-cü il bir yox, bir neçə seçkinin – parlament və bələdiyyə seçkilərinin də keçrilməsi ilə yadda qalacaq. Bu seçkilər ölkəmizin ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı olacaq.

Ümid Partiyası olaraq, 7 fevral növbədənkənar prezdent seçkilərinin keçrilməsi ilə bağlı rəsmi mövqeyimizi ictimaiyyətə bəyan etmişik. Bu gün torpaqlarımız işğaldan azad edilib, dövlət sərhədlərimizə nəzarət öz əlimizdədir, amma proses hələ bitməyib. Müxtəlif xarici təsirlər, bəzən təhdidlər, sülh müqaviləsinin bağlanmaması hələ də narahatlıq və böyük nigaranlıq yaradır. Belə vəziyyətdə başlanılan və uğurla aparılan bir siyasətin yekuna varması üçün mütləq stabillik və davamlılıq, o cümlədən, bu prosesi aparan Ali Baş Komandan İlham Əliyevin öz vəzifəsini sonadək icra etməsi ən məqsədəuyğun hal olardı”.

Taleh Əliyevin sözlərinə görə, Azərbaycan dövlətinin maraqlarını, ərazi bütövlüyünün bərpası işinin sülh müqaviləsi ilə yekunlaşmasını, aparılan siyasətin davamlılığını, suverenliyimizin möhkəmlənməsini, bu tarixi uğurun və şansın mütləq qələbə ilə sonlandırılmasını dəstəkləyən Ümid Partiyası 2024-cü ilin 7 fevral tarixində keçiriləcək növbədənkənar seçkilərdə hazırkı Prezident, Ali Baş Komandan İlham Əliyevin namizədliyini dəstəkləyir və bunu ölkəmiz, xalqımız adına ən doğru qərar sayır.

Politoloq hesab edir ki, tarixi qələbələrdən sonrakı mərhələlərin Prezdent İlham Əliyevlə davam etdirilməsi ən doğru qərardır: “Çünki İlham Əliyevin İkinci Qarabağ müharibəsində döyüş meydanında müzəffər Ali Baş Komandan kimi əldə etdiyi tarixi qələbəni mahir bir diplomat kimi danışıqlar prosesində də uğurla yekunlaşdırmaq gücünə inanırıq”.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Ümummilli liderin Naxçıvanda müstəqillik mücadiləsi

**Ulu öndər Heydər Əliyevin talenin hökmü ilə dünyanın siyasi olimpindən kənarlaşıb doğulduğu Naxçıvanda yaşamağa məcbur olduğu 1990–1993-cü illər ərazi bütövlüyümüzün qorunması və dövlət müstəqilliyimizin bərpa edilməsi uğrunda ümummilli mübarizənin ən çətin və qaynar dövrünə təsadüf etmişdir.**



Həmyelilərinin təkidli iradəsi və yaranmış mürəkkəb tarixi şəraitin tələbi ilə Ulu öndərin ölkə parlamentinə deputat seçildiyi, bir il sonra isə muxtar respublikaya rəhbərliyi öz üzərinə götürdüyü 2 ilə yaxın dövr Azərbaycanın dövlət müstəqilliyinin təməllərinin yaradılması ilə bağlı bir sıra ciddi addımların atılması ilə əlamətdar olmuşdur. Ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyev Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi illərdən söz açarkən bildirmişdir ki, bu dövrdə dünya siyasətinin nəhənglərindən biri olan ulu soydaşımız, əslində, Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyaları ilə yaşayırdı. O çətin vəziyyətdə, blokada şəraitində, ona qarşı daxili qüvvələrin törətdiyi qəsd, onu hakimiyyətdən kənar etmək cəhdlərinə baxmayaraq Heydər Əliyev təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın taleyini düşünürdü.

Həqiqətən, Heydər Əliyev bir xalq deputatı, sonra isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərdiyi həmin dövrdə Naxçıvan parlamentində həm yerli, həm də respublika əhəmiyyətli qərarlar qəbul edildi. Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, xarici dövlətlərlə əlaqələrin yaradılmasına, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına və başqa bir sıra vacib məsələlərin həllinə yönəldildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Bu sənəddə Naxçıvanda həyata keçirilən ümumazərbaycan əhəmiyyətli hadisələrin heç biri dəyərləndirilməmiş, yeni tarixi şəraitdə Naxçıvanın statusuna toxunulmamışdı. Halbuki təcrübi baxımdan Konstitusiya Aktında Naxçıvana da yer ayrılmasına ciddi ehtiyac var idi.

Bütün bunlara baxmayaraq, Naxçıvanın rəhbəri kimi Heydər Əliyev bu münasibətlə Azərbaycan xalqını təbrik etdi. Təbrik teleqramında bu hadisənin mahiyyəti dəyərləndirilməklə qeyd edilirdi ki, Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir. Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərinin həyata kecirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.

Muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyev müdafiə işlərini səbr və təmkinlə, ardıcıllıqla həyata keçirirdi. Heydər Əliyevin təşəbbüsü ilə hələ 1991-ci ildə Muxtar Respublika Dövlət Müdafiə Komitəsi yaradılmış, könüllülərdən ibarət nizami ordu təşkil olunmuş və vahid komandanlığa tabe etdirilmişdi. Lakin Naxçıvan Muxtar Respublikasının müdafiəsini daha etibarlı etmək üçün Heydər Əliyevin xüsusi planları vardı. 1946-cı ildə sovet ordusunun 75-ci motoatıcı diviziyası Naxçıvanda yerləşdirilmiş, silah-sursat və hərbi texnika ilə təmin olunmuşdu.

Heydər Əliyev Rusiya Federasiyasının rəhbərləri ilə danışıqlar aparır, 75-ci diviziyanın ləğv olunmasına çalışırdı. Eyni zamanda, Ali Məclisin Sədri diviziya komandanlığı ilə səmimi münasibət yaratmışdı ki, ordu hissələri təxribat etməsin. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 26 oktyabr sessiyasında muxtar respublika ərazisində olan hərbi hissələrin statusu haqqında məsələ müzakirə olundu və qərar qəbul edildi. Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi sayəsində Naxçıvanda yerləşmiş qoşun və sərhəd hissələrinin fəaliyyəti ilə bağlı bütün məsələlər Azərbaycanın mənafeyinə uyğun həll edildi.

"Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında qərarda deyilirdi ki, Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlər Azərbaycan xalqına, muxtar respublika əhalisinə məxsusdur. Muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən aparılmamalıdır.

Ali Məclisin qərarı ilə Rusiya qoşun hissələrinin Naxçıvandan çıxarılması və milli ordunun yaradılması prosesi başlandı. 1992-ci ilin iyul ayında Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi idarəsi və 75-ci motoatıcı diviziyanın komandanlığı ilə danışıqlar aparıldı. Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 25 iyun 1992-ci il tarixli iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi. Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya Ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdi.

Aparılan danışıqların nəticəsində Sovet İttifaqının sərhəd qoşunlarının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olundu. 41-ci sərhəd dəstəsinin funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının Naxçıvanda yaradılan birinci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı. İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlandı. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı. 1992-ci il sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin gərgin əməyi və çevik diplomatik gedişləri sayəsində heç bir insidentə yol verilmədən Naxçıvan ərazisini sonuncu rus sərhədçisi də tərk etdi.

Ermənistan tərəfindən Naxçıvanın blokadaya alınmasına və muxtar respublikaya yönəlmiş erməni təcavüzünə qarşı müdafiənin təşkili də diqqət mərkəzində idi. Erməni tərəfi qatarların təhlükəsiz hərəkətinə söz versə də, sözlərinə əməl etmədilər. Dekabrın 8-də erməni yaraqlıları Ordubad dəmir yolu stansiyası təmir briqadasının 12 işçisini girov götürdülər. Dekabrın 16-da isə Bakı–Şərur qatarı saxlanıldı. Dekabrın 19-da Heydər Əliyevin Ermənistan prezidenti ilə danışığından sonra 12 nəfər geri qaytarıldı. Eyni zamanda, saxlanılan Bakı–Şərur qatarı azad edildi.

Erməni silahlı birləşmələri qısa fasilədən sonra, 1992-ci il mayın 5-də sərhədi keçərək, Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələrinə yenidən basqın etdilər. Sədərək qəsəbəsi, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdu. Mayın 7-də səhər tezdən Sədərək qəsəbəsi və Havuş kəndi müxtəlif toplardan atəşə tutulmuş, 20 nəfər yaralanmışdı. Sədərəkdə böyük dağıntılar olmuşdu. Mayın 5-də Naxçıvan şəhərində, mayın 7-də Şərur rayonunun mərkəzində mitinq keçirildi. Heydər Əliyev hər iki mitinqdə çıxış etmiş, sabitliyi saxlamaq naminə bütün qüvvələrin birləşməsini zəruri hesab etmişdi.

Naxçıvandakı hərbi vəziyyətlə bağlı Türkiyənin Baş naziri Süleyman Dəmirəl ABŞ prezidenti Corc Buşla danışmış və mövqeyini bildirmişdi. Sədərək rayonunda təhlükəsizliyi təmin etmək məqsədilə orada hərbi vəziyyət elan edildi. 1992-ci il may ayının əvvəllərində Naxçıvan Muxtar Respublikasında, Azərbaycanın Ermənistanla sərhədlərində gərginlik yenidən artdı. Düşmən Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi.

Naxçıvan ətrafında blokadanın daraldılması da buna xidmət edirdi. 1991-ci ilin dekabr ayından Naxçıvan Muxtar Respublikasına qaz verilməsinin dayandırılmasına 1992-ci ilin iyul ayından elektrik enerjisinin kəsilməsi də əlavə olundu. 1992-ci ilin aprel ayından buraya qatarların hərəkəti tam dayandırılmışdı. Ermənistan silahlı qüvvələrinin Naxçıvana qarşı genişlənən təcavüzünün dəf edilməsi istiqamətində də işlər davam etdirilirdi. 1992-ci il mayın 18-də muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və başqa qəsəbə və kəndlərinə qarşı güclü, hətta zəhərli kimyəvi silahdan istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvan əhalisi Sədərəyin müdafiəsinə qalxdı. Onlar qəhrəmanlıqla vuruşurdular. Qəsəbənin yüz metrliyindəki Mil dağından 10 gün müddətində 17 şəhidin cəsədini götürmək mümkün olmadı.

Heydər Əliyevin şəxsi nüfuzu bir günlük atəşkəs yaratmağa kömək etdi, şəhidlərin cəsədləri 1992-ci il mayın 28-də döyüş zonasından götürüldü. Kəndlərə xeyli ziyan dəymiş, evlər və inzibati binalar dağıdılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu. Ali Məclisin Sədri Heydər Əliyev erməni təcavüzünün qarşısını almaqda diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı Baş nazir Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan Muxtar Respublikasının statusunda bir dəyişiklik meydana gələrsə, mövcud müqaviləyə əsasən Türkiyə öz sözünü deyəcəkdir.

Mayın 18-də gecə Türkiyə Nazirlər Kabineti toplanıb geniş bəyanat qəbul etdi. Bəyanatın çox mühüm cəhəti bir də ondan ibarətdir ki, Heydər Əliyevin göstərdiyi kimi, "Bəyanatda Türkiyə hökumətinin 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan Muxtar Respublikası haqqında xüsusi söz sahibi olması, qarant rolunu oynaması" məsələsi qeyd olunub və bu da bütün dünya ictimaiyyətinə çatdırılıb.

Həmin günlərdə bütün dünya informasiya orqanlarının verilişlərində, məlumatlarında 1921-ci il Qars müqaviləsi, onun mənası və Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyəti göstərilmişdir. Türkiyə rəhbərliyinin və Heydər Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi. Rusiya burada geri çəkilməyə məcbur oldu. Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi.

Ermənistan Naxçıvanın blokadasının başa çatdırılması və möhkəmləndirilməsi yönündə fəaliyyətini davam etdirirdi. 1992-ci il aprelin 24-də Azərbaycanın digər torpaqları ilə yeganə əlaqə vasitəsi olan dəmir yolu kəsildikdən sonra, iyulun 13-də qalan kommunikasiya xətlərinin də fəaliyyətinə son qoyuldu. Ermənilər bununla uzun müddət mühasirədə saxladıqları Naxçıvanı diz çökdürməklə Azərbaycana daha ağır zərbə vurmaq istəyirdilər. Naxçıvan Muxtar Respublikası əhalisinin iradəsini qırmaq mümkün olmadı. Naxçıvanlılar hər cür çətinliyə dözdülər və mübarizəni davam etdirdilər.

Heydər Əliyev bütün imkanlardan istifadə edərək Naxçıvanı blokadadan çıxarmağa, əhalinin vəziyyətini yaxşılaşdırmağa çalışırdı. Bunun üçün Türkiyə və İranla əlaqələr davam etdirilir, Naxçıvanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsi sahəsində geniş iş aparılırdı. Türkiyə ilə əməkdaşlığın ən önəmli məsələlərindən biri Araz çayı üzərində körpünün tikintisi oldu. Türkiyə ilə Naxçıvan arasında ilk müvəqqəti körpü salınmış və 1991-ci ilin oktyabrın 29-da istifadəyə verilmişdi. Naxçıvan körpüsü Türkiyənin Qafqaz və Orta Asiya dövlətlərinə keçidini təmin edən bir qapı idi.

1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında "Sədərək–Dilucu" 228 metrlik "Ümid korpusu" açıldı. Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük nümayəndə heyəti gəlmişdi. Baş nazir Süleyman Dəmirəl körpünün açılışını Azərbaycanla Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. Heydər Əliyev həmin körpünü "arzu və ümidlərin körpüsü" kimi dəyərləndirdi. Muxtar respublika parlamentinin qərarı ilə Sədərək–Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi.

Türkiyənin İqdir şəhərindən Naxçıvana elektrik xətti çəkildi. Türkiyə ilə əlaqələr genişlənirdi. Bunun üçün 1992-ci il martın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasına rəsmi səfərə getdi. Səfərin gedişində – martın 24-də 13 maddəlik əməkdaşlıq haqqında protokol imzalandı.

Bu sənəd muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, muxtar respublikanın zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji xətlərinin yaradılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda həmçinin bank işi, turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlinmişdi.

Muxtar respublikanın İranla da əlaqələri genişlənirdi. Heydər Əliyev 1992-ci il avqustun 22–26-da İran İslam Respublikası Prezidentinin dəvəti ilə Tehrana səfər etdi. Naxçıvan Muxtar Respublikasının ehtiyacları ilə bağlı qonşu dövlətlə danışıqlar aparıldı. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında 16 maddədən ibarət protokol imzalandı. Bağlanmış protokola əsasən muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, hər ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olundu.

Oktyabr–noyabr aylarında İran İslam Respublikasından Naxçıvana yardımlar, neft, dizel yanacağı, kömür və ərzaq məhsulları göndərildi. Dekabrın 3-də Şahtaxtı–Poldəşt arasında üzən körpü istifadəyə verildi. Həmin gün İrandan Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanıldı. İran və Türkiyə dövləti, ayrı-ayrı şirkətlər Naxçıvana yardım göstərməklə kifayətlənmir, burada yeni müəssisələr tikmək, mövcud müəssisələri modernləşdirmək, avadanlıqlarla təchiz etmək, muxtar respublikanı azad iqtisadi zonaya çevirmək üçün kömək edəcəklərini bildirirdilər.

Bütün bunlarla yanaşı, konsulluqların açılması üçün razılıq əldə edildi. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının konsulluqları fəaliyyətə başladı. Türkiyənin Naxçıvana yeni təyin olunmuş baş konsulu Orxan Ərtoğrul 1993-cu ilin yanvarında Heydər Əliyev tərəfindən qəbul edildi. Naxçıvan Muxtar Respublikasının paytaxtında ağıryüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni aeroport martın 1-də işə salındı. Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığının mahiyyəti Mərkəzdəki anti-Naxçıvan qüvvələri tərəfindən qəsdən təhrif edilirdi. Onlar bu addımları Naxçıvanda separatizm meyllərinin güclənməsi kimi təqdim etməyə çalışırdılar.

Azərbaycan dövlət hakimiyyəti orqanlarının nümayəndələri muxtar respublikaya kömək etmək əvəzinə, onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edirdi. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusunda dəyişiklik etməyə, onun konstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışırdılar. Bununla əlaqədar, muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi: "Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir".

Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyini yeni şəraitdə möhkəmləndirmək və inkişaf etdirmək konsepsiyası Mərkəzi hakimiyyət tərəfindən müqavimətlə qarşılanırdı. Heydər Əliyevin siyasətinin xalq içərisində rəğbətlə qarşılanması və dəstəklənməsi isə Mərkəzi hakimiyyəti narahat etməyə başlamışdı. Mərkəzi hakimiyyət Naxçıvanda hakimiyyətini möhkəmləndirmək planına nail olmaq üçün hakimiyyət strukturlarını ələ almağa çalışırdı. Bu məqsədlə ilk olaraq baş nazir vəzifəsi ələ keçirilmişdi. Əsas vəzifə isə Naxçıvan Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə yiyələnmək, daha doğrusu, Heydər Əliyevi siyasətdən uzaqlaşdırmaq idi. 1992-ci ilin 24 oktyabr silahlı çevrilişi də bu məqsədlə edilmişdi. Lakin xalq çevriliş cəhdini dəstəkləmədi. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevi müdafiə etdi və camaat Xalq Cəbhəsi silahlılarını dövlət idarələrindən qovub çıxardı.

Naxçıvanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Heydər Əliyev Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalq xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi.

1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr dünya Azərbaycan türklərinin Həmrəylik və Birlik günü haqqında" Qərarın qəbul edilməsi bu mənada xüsusi əhəmiyyətə malikdir. Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olundu. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda həyata keçirilən bütün tədbirlər Azərbaycan xalqının konsolidasiyasına, onun dövlətçiliyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi.

Naxçıvanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də Heydər Əliyevin diqqət mərkəzində idi. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haq-qında", "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi haqqında" qərarlar qəbul edildi. Heydər Əliyevin siyasi uzaqgörənliyi və fəhmi sayəsində atılmış bu addım Azərbaycanda yeni dövrün tələblərinə uyğun bu gün aparılan iqtisadi islahatların başlanğıc mərhələsi olmaqla, o zaman muxtar respublika iqtisadiyyatının aqrar sahəsinin tam məhvolma təhlükəsini aradan qaldırdı. Beləliklə də Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanıldı.

1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə baş verdi: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradıldı. Azərbaycanın müxtəlif regionlarından təəssübkeş qrupların 550-dən artıq nümayəndələrinin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmiş, YAP-ın Proqram və Nizamnaməsi qəbul edilmiş, Heydər Əlirza oğlu Əliyev konfrans nümayəndələri tərəfindən açıq səsvermə yolu ilə yeni Azərbaycan Partiyasının sədri seçilmişdi.

Heydər Əliyev Naxçıvanın düşdüyü blokada vəziyyətindən çıxarılmasında və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında dünyanın iri dövlətlərinin humanitar yardım göstərməsi istiqamətində fəaliyyət göstərirdi. Elə bu məqsədlə də Heydər Əliyev 1993-cu il yanvarın 20-də ABŞ prezidenti B.Klintona məktub göndərdi. Məktubda deyilirdi: "...Sizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası artıq səkkiz aydır ki, ağır iqtisadi blokada şəraitindədir. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə bağlayan və Ermənistanın ərazisindən keçən bütün kommunikasiya xətləri pozulmuşdur. Buna görə də muxtar respublikanın iqtisadiyyatının zəruri ehtiyatlarla təmin olunmasında, əhalinin ərzağa, elektrik enerjisinə, yanacağa olan minimum tələbatının ödənilməsində son dərəcə çətinliklər yaranıb."

ABŞ prezidenti dünya şöhrətli siyasətçi Heydər Əliyevin məktubuna dərhal reaksiya vermişdi. ABŞ-ın Bakıdakı səfiri Ricard Mayls Naxçıvana gəlmiş, Naxçıvanın ehtiyaclarını öyrənmişdir. Bir aydan sonra ABŞ-ın Naxçıvana təcili humanitar yardımı başlanmışdır. ABŞ-dan uçan və 1 milyon ABŞ dolları dəyərində olan tibb ləvazimatı və ərzaq məhsulları ilə yüklənmiş "Boing" təyyarəsi martın 9-da Naxçıvana enmişdir. Martın 21-də Fransadan Naxçıvana humanitar yardım göndərilmişdir. Martın 24-də Türkiyə hökuməti Naxçıvana 25 milyon Amerika dolları həcmində kredit ayırmışdır. Türkiyə və İran dövlətlərinin, şirkətlərinin və qeyri-hökumət təşkilatlarının Naxçıvana yardımları davam etmişdir.

Tarixi baxımdan qısa bir müddət ərzində Naxçıvanda yaşayıb fəaliyyət göstərən Heydər Əliyev misilsiz xidmətlər göstərmiş, Naxçıvanı işğal təhlükəsindən, əhalini isə aclıq və səfalətdən xilas etmişdir. Ötən dövrün təhlili göstərir ki, qüdrətli dövlət xadimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi, Moskva və Qars müqavilələrinin müddəalarına istinad etməklə Naxçıvanı xilas etmişdir. Bu hadisə xilaskarlıq missiyasını həyata keçirən görkəmli dövlət xadimi Heydər Əliyevin həm də böyük siyasətə qayıdışına yol açması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvandan başlanan xilaskarlıq yolu Azərbaycanın şanlı tarixində yeni səhifə açmaqla müstəqil ölkəmizin işıqlı gələcəyini təmin edib.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# İran Prezidenti Paşinyana nə deyib?

## Yaxud İrəvan–Tehran qəfil telefon təmasına sözardı



*(əvvəli 1-ci səhifədə)*

Yəni, hazırda Rəisinin diqqətə çatdırdıqlarında təəccüblü nə isə yoxdur. Təəccüblü olan İran Prezidentinin yuxarıda diqqətə çatdırdığımız fikirlərini Ermənistan hökumətinin iki ölkə, eləcə də region ölkələri arasında avtomobil və dəmir yolu əlaqələrini inkişaf etdirmək planına cavab xüsusunda səsləndirməsidir. Sual olunur: hazırda hansı səbəbdən regional kommunikasiyaların açılmasına maneçilik var? Əlbəttə, başlıca maneə Azərbaycanla Ermənistan arasında sülh mühitinin istisna təşkil etməsidir. Bəs, sülhə imkan verməyən hansı tərəfdir? Birmənalı qaydada demək olar ki, Ermənistan!

***

Regional kommunikasiyaların açılması dedikdə, gözlər önündə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu canlanmaqdadır. Ölkəmizin mövcud xüsusdakı mövqeyi bundan ibarətdir ki, sözügedən yolun açılmasında Ermənistanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı hər hansı problem yoxdur. Başlıca məqam həmin marşrutun "Azərbaycandan Azərbaycana asan yol" məntiqini rəhbər tutmasıdır. Yəni, prinsip ondan ibarətdir ki, orada gömrük-keçid, sərhəd-nəzarət məntəqəsi olmasın. Bu, Bakının tələbidir. Bakı həm də ona görə mövqeyində israrlıdır ki, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü öhdəlik var. Əgər İrəvan öhdəliyini yerinə yetirmək istəmirsə, Azərbaycan Naxçıvana yolun İrandan keçməsinə razıdır və Prezident İlham Əliyevin də bildirdiyi kimi, bununla əlaqədar Tehranla müvafiq razılaşma əldə olunub.

***

Onu da nəzərə alaq ki, Ermənistanın Qərbdəki dəstəkçiləri Naxçıvana yolun Ermənistan ərazisindən keçməsində təkidlidirlər. Onlar ölkəni təcriddən qurtarmağı və gücləndirməyi düşünürlər. Bu səbəbdən də Bakıya mövcud istiqamətdə təzyiq göstərmək cəhdləri var. Belə bir anlaşılmaz mövqe tutanlar Azərbaycanın müstəqil əsasda verdiyi qərarın, yəni Naxçıvana yolun Ermənistandan deyil, İran ərazisindən keçmək preambulasını qəbuledilməz sayırlar. Fikirlərini isə təxminən bu cür əsaslandırırlar: Tehrana nəfəslik vermək olmaz!

***

Bəli, İranın nəfəsini kəsmək istəyənlərin kiçik səngərində yer alan İrəvan rəsmilərinin Tehranı öz tərəflərinə çəkmək, yaxud da onu Bakıya qarşı qaldırmaq istəmələri mümkündür. Təsadüfi deyil ki, bir sıra ekspertlər Paşinyanın Rəisiyə qəfil telefon zənginі məhz mövcud prizmadan dəyərləndirirlər. Bəs, Ermənistanın istəyinə nail olması nə dərəcədə mümkündür?

Əvvəla, İran–Ermənistan münasibətləri hər nə qədər rəvan müstəvidə olsa da, birinci ikincinin hansı "sularda üzdüyünü" bilməmiş deyil. Digər tərəfdən, ümumən Tehranın Cənubi Qafqazın qlobal tranzit əhəmiyyətinin vurğulanmasını rəhbər tutan layihələri dəstəkləməsi şübhəsizdir. Həm də ona görə şübhəsizdir ki, bu layihələr onun özü üçün də iqtisadi baxımdan sərfəlidir. Ancaq İran elə ölkədir ki, onu yalnız iqtisadi fayda ilə hansısa təşəbbüsə cəlb etmək, şirnikləndirmək mümkünsüzdür. Tehranın rəsmi elitası, eləcə də siyasi dairələri iqtisadi fayda amili ilə siyasi mənfəət paradiqmasını vəhdətdə tutmağı bacaracaq, hər məqamı hesablayacaq qədər tədbirlidirlər.

Nəzərə alsaq ki, Cənubi Qafqaz İran üçün oturuşmuş siyasi mahiyyət daşıyır, bu mənada Rəisinin bölgə ölkələrinin ərazi bütövlüyündən və suverenliyindən söz açması, həm də onların işlərinə kənardan müdaxilənin yolverilməzliyinin vurğulanmasıdır. "İran İslam Respublikasının Qafqazla bağlı xarici siyasəti müəyyəndir və elə etmək lazımdır ki, Qafqaz regiondankənar ölkələrin rəqabət meydanına çevrilməsin və onun məsələləri kənar şəxslərin müdaxiləsi olmadan, region ölkələrinin özləri tərəfindən həllini tapsın", – deyən İran Prezidentinin sözləri də fikrimizin təsdiqidir.

Deməli, indi məlum olur ki, nə üçün Ermənistanın baş nazirinin aparatı İslam respublikasının rəhbəri ilə telefon danışığı barədə kiçik məlumatla kifayətlənib. Müvafiq surətdə düşünmək mümkündür ki, Paşinyan Rəisi ilə söhbətdə sərfəli nəticə əldə etməyi bacarmayıb. Necə bacarsın? Axı, Ermənistan öz sərhədinə Avropa İttifaqının sayı, az qala, hər kvartalda artırılan müşahidə missiyasını yerləşdirib, ABŞ hərbçiləri ölkənin ordusunda təlimlər keçirir. Hələ Fransa amili də var. Ümumən kollektiv Qərbin İranın bir addımlığında "lövbər salması" ölkəyə qətiyyən sərfəli deyil.

***

Bəli, bütün bunlara görədir ki, "Region region ölkələri üçündür" prinsipini əsas tutan İran özünün dövlət başçısının şəxsində Ermənistanın liderinə "3+3" platformasından söz açıb və bildirib ki, mövcud platforma regional münasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsi, eləcə də region ölkələri arasında münasibətlərin tənzimlənməsi istiqamətində konstruktiv mahiyyət daşıyır.

Yeri gəlmişkən, Prezident İ.Rəisi Paşinyanla telefon danışığı zamanı "3+3" platformasının bir müddət əvvəl Tehranda gerçəkləşmiş toplantısından da bəhs edib. Məlum olduğu kimi, həmin toplantıda İranla yanaşı, Azərbaycanın, Türkiyənin, Rusiyanın və Ermənistanın xarici işlər nazirləri iştirak etmişdilər. O da diqqət çəkmişdi ki, erməni XİN rəhbəri Ararat Mirzoyan görüşə könülsüz, sırf İranda qıcıq doğurmamaq üçün qatılıb.

Qeyd edək ki, Tehran toplantısında Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramovla A.Mirzoyanın qısa təması da baş tutmuşdu. Bu qarşılaşmanın elə bir ciddi əhəmiyyətinin olmadığını isə Ermənistanın yaydığı məlumat təsdiqləmişdi. Ölkənin baş xarici siyasət idarəsindən bildirilmişdi ki, "3+3" İrəvan–Bakı münasibətlərinin, ümumən Ermənistan–Azərbaycan nizamlamasının müzakirəyə çıxarıldığı platforma ola bilməz. Nə üçün? Səbəb çox sadədir. Ermənistan Qərbin vasitəçiləri olmadan keçinə bilmir. Habelə, baş nazir N.Paşinyan nəinki ölkəsinin Azərbaycanla münasibətlərinə, eləcə də Cənubi Qafqaza xarici oyunçuların cəlbini əsas götürməkdədir. O oyunçuların ki, onlar prinsip etibarilə həm İrana, həm Rusiyaya qarşı barışmaz mövqedədirlər. Üstəlik, Azərbaycanın daxili işlərinə, o cümlədən İranla ikitərəfli münasibətlərinə müdaxilə etmək əzmindədirlər. Onlar, həmçinin, Türkiyəyə münasibətdə də konsturktiv mövqe tutmurlar. Bütün bunların fonunda İ.Rəisinin N.Paşinyana, hətta "ağıllı ol" mesajını verdiyini bildirmək mümkündür. Nikol ağıllı olacaqmı, bunu əlahəzrət zaman göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Uduzmağa vərdiş edənlərin xəyalı

## *İrəvanı təhlükəli silahlanmaya çəkənlər onu yeni fəlakətə aparırlar*

*(əvvəli 1-ci səhifədə)*

"Hindistan Ermənistana ballistik və qanadlı raketlər verəcək". Son günlər Hindistan mediası bu və buna bənzər başlıqlar altında xəbərlər yayımlayıb. Ermənistanın silahlandırılmasında Dehlinin əhəmiyyətli "sıçrayış" etdiyinin vurğulandığı materiallarda bu dəfə söhbət yalnız zenit-raket komplekslərindən, artilleriya qurğularından, tank əleyhinə raketlərdən, yaxud PUA-ları aşkar və məhv edən sistemlərdən deyil, ballistik və qanadlı raketlərdən gedir. Belə ki, Hindistan və Ermənistan müdafiə nazirliklərinin müvəkkil etdikləri strukturlar arasında "Pralay" ballistik raketlərinin satışına dair razılaşma əldə olunub.




Məlumatlarda deyilir ki, Hindistanın müdafiə sənayesində çalışan tədqiqatçılar taktiki məqsədlər üçün öz ordularının tələbatına ödəyəcək "Pralay"ın atış radiusu 150 – 500 kilometr arasında dəyişdiyini diqqətə çatdırırlar. Yerli "Idrw.org" internet saytının yaydığı məlumata görə, Hindistan hökumətinə və Müdafiə Nazirliyinə yaxın DRDO strukturu Ermənistana ballistik raketlərin satışı məsələsini, faktiki olaraq, həll edib. Qurumun nümayəndələri İrəvana hansı tip raketlərin satılacağını bildirməsələr də, etibarlı mənbələr söhbətin səsdən iti "BraMos" qanadlı və "Pralay" ballistik raketlərindən getdiyini təsdiqləyiblər. Xəbərlərdə Hindistanın HHM qoşunlarının arsenalına daxil edilmiş bu raketlərin hazırlanmasına və sınaqdan çıxarılmasına Silahlı Qüvvələrin Baş qərargah rəisi general Bipin Ravatın başçılıq etdiyi qeyd olunur. "BraMos" və "Pralay"ın ilk alıcısı kimi isə Filippinin adı hallandırılır. Məlumatlarda o da vurğulanır ki, Dehli raket texnologiyasının ixracına qoyulmuş mövcud məhdudiyyəti pozmamaqdan ötrü Ermənistana 300 kilometrə qədər məsafə qət edən raketləri təklif etməyə hazırlaşır.

* * *

Göründüyü kimi, Hindistanın Ermənistana satdığı və satmağa hazırlaşdığı hərbi silahların çeşidi kifayət qədər zəngindir. Mövcud kontekstdə həmin silahların hücum xarakterli növləri diqqəti cəlb etməyə bilməz. İrəvanın hindli tərəfdaşlarından almağı planladığı həmin taktiki və ballistik raketlər məhz bu qəbildəndir.

Bir müddət əvvəl Hindistanın onlayn mediasında belə bir informasiya getmişdi ki, Ermənistan uçuş məsafəsi 290 kilometr, döyüş başlığının ağırlığı 300 kiloqram olan "BraMos" qanadlı raketlərini əldə etməyə maraq göstəribmiş. Digər yandan, "Pralay" ballistik raketlərə dair davam edən danışıqlar barədə məlumatlarda göstərilirdi ki, modifikasiyadan asılı olaraq, bu raketlərin döyüş başlıqları 350-dən 700 kiloqram arasında dəyişir. Bu zaman raketdə kasetli döyüş başlığının yerləşdirilə biləcəyi də vurğulanmışdı. Mobil platformada yerləşdirilmiş "Pralay" raketinin ilk sınaqlarının 2021-ci ilin dekabr ayında keçirildiyi faktı da yerli xəbərlərdə keçmişdi.

DRDO-nun rəsmi məlumatına əsasən, idarəetmə orqanları, yönəltmə sistemləri və missiyanın alqoritmlərinin yoxlanıldığı ilk sınaq atışları zamanı "Pralay" kvaziballistik trayektoriya ilə uçaraq, buraxılış nöqtəsindən 400 kilometr məsafədə müəyyən edilmiş hədəfi yüksək dəqiqliklə sıradan çıxarıb. İkinci sınaq zamanı isə raket maksimal məsafəni – 500 kilometri qət edib və uçuşa Hindistanın Şəqr sahillərində yerləşən radarlar və elektrooptik izləmə sistemi tərəfindən tamamilə nəzarət edilib. Hazırda "Pralay"ın uçuş radiusunun daha da genişləndirilməsi və onun iki, üz yüz kilometrədək artırılması üzərində işlərin aparıldığı məlumdur.

* * *

Yerli ekspertlərdən bəzilərinin fikrincə, Hindistanın Ermənistana yalnız müdafiə xarakterli deyil, həm də hücum silahlarını verməkdə altməqsədi Cənubi Qafqazda Türkiyə–Azərbaycan–Pakistan ittifaqına qarşı Hindistan–Ermənistan–İran alyansını yaratmaqdır. Əlbəttə ki, burada Dehlinin gəlir əldə etmək marağı da nəzərdən qaçırılmamalıdır.

Oxuculara xatırladaq ki, Hindistan və Ermənistan arasında çoxtərəfli strateji əməkdaşlığa dair anlaşma 2019-cu ildə imzalanıb. Fəqət, Dehlinin bu regionda real aktivləşmə dövrü Azərbaycanın 44 günlük Qarabağ müharibəsində qazandığı zəfərdən sonra başlayıb. Bundan başqa, Hindistan Yunanıstanla da strateji tərəfdaşlıq barədə saziş bağlayıb ki, bunun da Türkiyənin Cənubi Qafqazla yanaşı, Yaxın Şərqdə və Aralıq dənizi bölgəsində artan təsirini neytrallaşdırmağa hesablandığını birmənalı şəkildə söyləmək olar. Amma bu oyunda, ən yaxşı halda, kənar müşahidəçi statusunda iştirak edən Ermənistan hakimiyyəti son üç ildə düçar olduğu hərbi məğlubiyyətlərini qətiyyən unutmamalı və indi özü üçün zərərli və yüksək riskli xam xəyallara qapılmamalıdır.

Beləliklə, deyilənlərdən belə bir nəticə hasil olur ki, kənar ianələrdən də bəhrələnən Ermənistanın məqsədi Azərbaycanla hərbi balansa nail olmaqdır. İntəhası, bu zaman özünün məhdud hərbi büdcəsini Hindistan və Fransadan silah almağa xərcləməsinin real əsasları yoxdur. Əlalxüsus, nəzərə alınsa ki, ölkəmiz müdafiə qabiliyyətini və ordunun qüdrətini daha da artırmaq məqsədilə dünyanın ən müasir silah sistemlərini əldə edir, onda Hayastanın bu "marafonda" həmişə arxada qalacağı labüddür. Yox, əgər onun bu gün baş vurduğu militarist siyasəti gələcəkdə Cənubi Qafqazda yeni hərbi qarşıdurmaya, Üçüncü Qarabağ müharibəsinə hesablanırsa, bu halda Ermənistanın bir dövlət olaraq mövcudluğu sual altına düşəcək. Onların üzləşə biləcəyi bu acınacaqlı perspektivi biz deyil, müstəqil erməni ekspertləri, praqmatik siyasətçiləri özləri də deyirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

**Sülh danışıqlarının intensivləşdiyi, vasitəçisiz birbaşa dialoqun müəyyən nəticələr verməyə başladığı indiki dönəmdə İrəvanın silahlanmaya canatması, Hindistandan raketlər alması, əlbəttə ki, bölgədə gərginliyi yenidən artıra bilər. Prezident İlham Əliyev demişdi ki, Azərbaycan Ermənistanın silahlanmasına, uzaqmənzilli raketlər almasına seyrçi qalmayacaq. Bu, İrəvan üçün ciddi xəbərdarlıq olmalıdır. Dehli və Parislə də izahat işləri aparmağa ehtiyac var. Doğrudur, Fransa ilə münasibətlərimiz, demək olar ki, tam korlanıb, amma Hindistanla hər halda normal ticarət əlaqələrimiz var. Onlara da başa salmalıyıq ki, Ermənistanla bu xarakterli silah satışı sövdələşməsinin bölgədə gərginliyi artırma ehtimalı var. Əslində, bu vəziyyət Hindistanın da maraqlarına cavab vermir. Yəni, diplomatik müstəvidə təmasların artırılmasına ehtiyac duyulur.**

**İrəvanla aparılan ikitərəfli sülh danışıqlarında da bu məsələ qaldırılmalıdır. Əgər Ermənistan həqiqətən də Azərbacanla sülhə gəlmək, Türkiyə ilə münasibətlərini normallaşdırmaq istəyirsə, özünün milli təhlükəsizlik siyasətinə yenidən baxmalıdır. Bakı dəfələrlə bəyan edib ki, Qarabağ problemi öz həllini tapıb və Ermənistan isteblişmentindəki, eləcə də siyasi dairələrdə revanş əhval-ruhiyyəsinin artması hiss olunarsa, İrəvan məhz bu cür təxribatçı siyasətə uyğun addımlar atarsa, biz bölgədə vəziyyətin gərginləşməsinin şahidi olacağıq. Amma əmin olsunlar ki, son nəticədə onları Fransadan, Hindistandan aldığı silahlar da xilas edə bilməyəcək.**

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

**Ermənistanın silahlandırılması təəccüblü deyil. Onun 44 günlük müharibədə darmadağın edilmiş və ağır itkilərə məruz qalmış bir ordusu var. Əvvəllər Ermənistanın silahlanması Rusiya tərəfindən aparılırdı. Amma Ukraynadakı hərbi əməliyyatlar Moskvaya silah ticarətində müəyyən problemlər yaratdığına görə, İrəvan, təbii ki, başqa silah tədarükçülərinə üz tutur. Ermənistanın Fransa və Hindistanla hərbi-texniki əməkdaşlıq sahəsində atdığı addımlarını görürük.**

**İrəvanın hazırkı sülh ab-havasının fonunda silahlanması bir tərəfdən onun nə qədər silah almaq imkanına malik olduğunun, digər tərəfdən Ermənistanı silahlandıran ölkələrin iştahalarının göstəricisidir. Bəli, bu zaman region üçün təhlükə yarana bilər. Aydın məsələdir ki, İrəvan yenə bu və ya digər qüvvələrin əlində alətdir. Ən yeni tarix onu deyir ki, Ermənistanın silahlandırılması bütün hallrda bölgənin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərir.**

**Ermənistan havadarlarının ona ayırdığı ianələr və ya subsidiyalar hesabına artıq böyük təsir gücünə malik ağır silahlar əldə etməyə başlayıb. Yəqin müharibə ritorikasının artmasının səbəbi budur. Məğlubiyyəti həzm edə bilməyən erməni cəmiyyətinin reavnşist ovqatı sülh danışıqlarında da maneəyə çevrilir. Burada xaricdəki havadarlarının da sülhün əldə olunmasına maraq göstərməməsi öz rolunu oynayır. Cəmiyyətin sülh sazişinə hazır olmadığını Paşinyanın özü də bir neçə dəfə dilinə gətirib.**

**Azərbaycan lazımi tədbirləri görür, ordumuz gündən-günə güclənir. Bakı sülhə köklənib. Yox, əgər Ermənistan avanturist revanşizmdən əl çəkməsə, bu halda nəticə özü üçün acınacaqlı olacaq. Ukraynanın aqibəti onlara görk olmalıdır.**

# Yeni layihələr Azərbaycanın tranzit potensialını müasirləşdirir

## Bu il ərazidə 256 min 653 daşıma həyata keçirilib



*(əvvəli 1-ci səhifədə)*

Ölkəmizin beynəlxalq avtomobil daşımaları bazarının böyüməsi isə milli daşıyıcıların yeni istiqamətlərdə beynəlxalq yük daşımaları həyata keçirmələri ilə bağlıdır. Məsələn, Azərbaycan daşıyıcıları tərəfindən hazırda Monqolustan və İraq kimi ölkələrə də beynəlxalq yükdaşımaları fəaliyyəti göstərilr. Bu daşımalarda iştirak edən yük avtomobillərinin sayında ciddi artım müşahidə olunur. Belə ki, beynəlxalq daşımalarda iştirak edən yük avtomobillərinin sayı 2021-ci ildə 3 min 432, 2022-ci ildə 9 min 225 və 2023-cü ildə 12 min 593 ədəd təşkil edir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) cari ilin 6 ayının yekunlarına dair statistik məlumatlarına əsasən, avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalarında bir sıra göstəricilər üzrə davamlı artım müşahidə olunur. Agentliyin məlumatında bildirilir ki, 2022-ci ilin müvafiq dövrü ilə 2023-cü ilin yanvar–iyun aylarının göstəricilərinin müqayisəsi daşımalarda istifadə edilən nəqliyyat vasitələri parkının genişləndiyini, daşıyıcıların sayının, eləcə də Azərbaycan daşıyıcılarının bazar paylarının daha da artdığını göstərir.

Nəqliyyat vasitələrinin sayında artım bazarın şəffaflaşması nəticəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb.

3-cü ölkə daşımaları üzrə göstəricilərdə də artım dinamikası nəzərə çarpıb. Belə ki, 2023-cü ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycan daşıyıcıları tərəfindən həyata keçirilən 3-cü ölkə daşımaları 2 dəfə yüksəlib. 2023-cü ilin yanvar–iyun aylarında 25 min 318 ədəd 3-cü ölkə daşımaları həyata keçirilib. Bu göstərici 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 12 min 592 ədəd artıq olub.

Statistik göstəricilərlə ifadə olunan bütün bu uğurlar təsadüfi xarakter daşımır. Bu, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Yeri gəlmişkən, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar imzaladığı 29 mart 2023-cü il tarixli Fərmanla beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda, beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.

Beləliklə, beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadəyə əlverişli şərait yaradılıb. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artmasına və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsinə münbit zəmin yaradıb.

Göründüyü kimi, dövlətimizin başçısının yuxarıda adıçəkilən fərmanı Azərbaycanın son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi nəticələrin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Elə hazırda ölkə sərhədlərini keçən avtomobillərin sayının getdikcə artması da bu sahədə böyük perspektivlər vəd edir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həm ölkəmiz, həm də ayrı-ayrı dövlətlər tərəfindən beynəlxalq nəqliyyat dəhlizlərində yükdaşımalarının artırılması üçün Azərbaycanın tranzit imkanlarını genişləndirmək məqsədilə genişmiqyaslı layihələr reallaşdırılır. Buna görə də beynəlxalq standartlarına cavab verən magistral avtomobil, dəmir yolları, dəniz nəqliyyatı, yol ötürücüləri və körpüləri beynəlxalq yük və sərnişin daşımaları üçün olduqca əlverişlidir.

Ölkəmiz tarixi İpək yolunun üzərində yerləşir, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında səmərəli körpü rolunu oynayır və bütün bunlar respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində yüksək uğurlar əldə etməsinə əhəmiyyətli təsir göstərir. Dövlətimizin başçısı bununla bağlı çıxışlarının birində deyib: "Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır. Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar".

Yeri gəlmişkən, ölkəmizin son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi yüksək nəticələrin yaxşılaşdırılmasını şərtləndirən bir neçə məqamı diqqətə çatdırmaq istərdim. Bununla bağlı əvvəlcə onu deyim ki, təkcə son 20 ildə Azərbaycanda 20 min kilometrdən çox avtomobil yolu və 1500 kilometrə yaxın dəmir yolu yeni tikilib və ya əsaslı təmir olunub. TRASEKA, Şimal–Cənub kimi iri nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihələri həyata keçirilib. Avropa və Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin edən Bakı–Tbilisi–Qars dəmir yolu 2017-ci ildə istismara buraxılıb.

Regionun müasir və təhlükəsiz limanı hesab edilən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı 2018-ci ildə istifadəyə verilib. Liman infrastrukturu üzrə logistika yaxşılaşdırılıb, limanlarda tranzit yükdaşıması üstünlüyünə nail olunub. Müasir tələblərə cavab verən və 2013-cü ildə istifadəyə verilmiş Bakı Gəmiqayırma Zavodu isə ən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri sahəsində fəaliyyətini gücləndirib.

## Ölkəmiz Türkiyəyə 20 milyard dollara yaxın investisiya yatırıb




***Azərbaycanın xarici ölkələrdəki investisiya həcminə görə Türkiyə 1-ci yerdədir. Bu, ölkələrimiz arasında investisiya tərəfdaşlığının inkişaf səviyyəsini əyani olaraq göstərir.***

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov dekabrın 21-də Bakıda keçirilən Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan – Türkiyə İnvestisiya Forumunda deyib.

Nazir bildirib ki, ölkəmiz 1995-ci ildən 2023-cü ilin 6 ayınadək qardaş Türkiyəyə 19,9 milyard dollar həcmində investisiya yatırıb. "Sevindirici haldır ki, Azərbaycanda qeyri-neft-qaz sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə 1-ci yerdə qərarlaşıb", – deyə nazir əlavə edib.

## Avropa bankının Xəzər gəmiçiliyinə 60 milyon dollarlıq krediti

***Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) 60 milyon ABŞ dolları kredit ayırıb.***




ASCO-nun məlumatına görə, Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq genişlənmə strategiyasına uyğun olaraq həmin vəsaitlə 2 quru yük gəmisi alacaq. Bu layihə dövlət şirkətinə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) bir hissəsi kimi regional əlaqələrini gücləndirməyə, Xəzər dənizindən kənarda– beynəlxalq sularda ticarət donanması əməliyyatlarının sayını artırmağa imkan verəcək.

Kredit müqaviləsi çərçivəsində ASCO üzərinə yaxın gələcəkdə beynəlxalq "Yaşıl maliyyə bazarı"na daxil olmaq məqsədilə dayanıqlığa bağlı kredit çərçivəsi hazırlamaq öhdəliyi də götürəcək.

## Gömrük xidmətinin büdcəyə 5,7 milyard manat mədaxili

***Cari ilin yanvar–noyabr aylarında gömrük xətti ilə büdcə daxilolmaları 12,4 faiz artaraq 5 milyard 718,35 milyon manata çatıb.***

Bu barədə Dövlət Gömrük Komitəsi xəbər verib. Məlumata görə, hesabat dövründə gömrük rüsumları üzrə daxilolmalar 1 milyard 495,43 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 18,6 faiz çox), əlavə dəyər vergisi üzrə daxilolmalar 3 milyard 977,97 milyon manat (9,8 faiz çox), aksizlər üzrə daxilolmalar 205,91 milyon manat (37,4 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 39,26 milyon manat (31,5 faiz az) təşkil edib.

***XQ***

# Aqrar sahə fəlakət və ziyandan etibarlı sığortalanıb

## Yığım və ödəniş bu il 2 dəfə çoxdur



**Bu il ölkəmizdə müşahidə olunan qeyri-sabit hava şəraiti, sel və daşqınlar səbəbindən sığorta hadisələri kəskin artıb. Aqrar Sığorta Fondu ötən müddətdə bununla bağlı ödənişlərin həyata keçirlməsini davam etdirib. Bu barədə media nümayəndələrinə Fondun İdarə Heyətinin sədri Fuad Sadıqov məlumat verib.**

Fond rəhbəri ölkəmizdə aqrar sığorta hadisələrinin əsas səbəblərini də açıqlayıb. Bildirib ki, aqrar sektorda sığorta hadisələrinin 47 faizi güclü külək, fırtına, qasırğa, 21 faizi leysan, sel, daşqın, 11 faizi isə dolu ilə müşahidə edilən təbiət hadisələri nəticəsində baş verir. Zərər ödənişlərinin böyük hissəsinin taxıl sahələrinə aid olduğunu diqqətə çatdıran F.Sadıqovun sözlərinə görə, bu, fondun sığorta portfelinin 80 faizinin həmin sahələrin hesabına formalaşması ilə bağlıdır. Belə ki, ölkəmizin 1,7 milyon hektar əkin ərazisinin 1 milyon hektarından taxıl istehsalı üçün istifadə edilir.

İdarə heyətinin sədri bildirib ki, cari ilin ötən dövründə qeydə alınan sığorta hadisələri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4 dəfə çox olub. Bu da sığorta hadisələrindən zərər çəkmiş kənd təsərrüfatı məhsullarının istehsalçılarına 4 milyon manat ödənişin edilməsi ilə nəticələnib. Ötən il isə bu rəqəm 2,7 milyon manat təşkil edib. Onun dediyinə görə, bu il təbiət hadisələrindən ziyana düşən fermerlərə sığorta pullarının verilməsi növbəti ilin əvvəlində də davam etdiriləcək: "Yetər ki, bütün sənədlər bizə vaxtında təqdim edilsin. Bu il baş vermiş sığorta hadisələri üzrə ümumi ödənişin 6-7 milyon manat civarında olacağı gözlənilir. Fondun qeydə aldığı sığorta hadisələri lokal xarakter daşımır. Hadisələr ölkənin bütün ərazisini əhatə edib və müxtəlif dövrlərdə olub. Məsələn, bu ilin əvvəlində Qobustan, Şəki, Zaqatalada güclü küləklər, may ayında Aran bölgəsində, Goranboyda, eləcə də Cənub bölgəsində güclü leysan və daşqınlar baş verib".

Bu il sığorta hadisəsi olan 100 istehsalçıdan 75-nə ödəniş edildiyini deyən F.Sadıqov qeyd edib ki, fermerlərin 15 faizi özü, 10 faiz halda isə fond sığorta ödənişindən imtina edib. O bunu sığorta təminatı elmində olmayan risklər hesabına zərərlərin yaranması ilə əlaqələndirib. Bununla belə, hazırda Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının cəmi 10 faizi sığorta olunur. Fond rəhbəri hesab edir ki, 90 faizlik istehsal həcmi sığortalanmasa da, ölkədə aqrar sığorta sisteminin yeni olmasına rəğmən, nəticələr hər il müsbətə doğru dəyişir. Belə ki, ötən il fondun sığorta yığımları 15 milyon manat olub, bu il isə həmin rəqəmin 20 faiz artması gözlənilir. Fondun zərər ödənişi 2021-ci ildə 2 milyon manat, 2022-ci ildə 3 milyon manat təşkil edib, 2023-cü ildə isə 5 milyon manat olacaq.

Bu arada, Azərbaycanda payızlıq əkin sahələrinin sığortalanması ilə bağlı müraciətlərin emal müddəti yanvarın 15-nə qədər uzadılıb. Aqrar Sığorta Fondunun məlumatına görə, əkin sahələrini bəyan edən fermerlərə həmin müddətə qədər sığorta ilə bağlı SMS bildirişlər göndəriləcək və onlar əkinlərini bu tarixə qədər sığorta edə biləcəklər. Yanvarın 15-nə qədər göndərilən SMS-lər üzrə 5 iş günü ərzində ödənişlərin edilməsi mümkün olacaq.

Yeri gəlmişkən, ölkəmizdə dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta vasitəsilə əkin sahələrini, kənd təsərrüfatı heyvanlarını və balıqçılıq təsərrüfatlarını sığortalamaq mümkündür. Aqrar sığorta çərçivəsində heyvanlar yoluxucu xəstəliklər, ilan və ya həşərat sancması, zəhərli ot, yem və kimyəvi maddələrdən zəhərlənmə, təbii fəlakət, yanğın, üçüncü şəxslərin hərəkətləri ilə yanaşı, vəhşi heyvanların hücumundan da sığortalanır.

Artıq ölkəmizdə vəhşi heyvanların hücumu nəticəsində dəyən zərərə görə də fermerlərə ödənişlər edilir. Aqrar Sığorta Fondunun məlumatına görə, indiyədək sığortalanan təsərrüfatlarda vəhşi heyvanların hücumu nəticəsində 14 hadisə qeydə alınıb. Belə hallar isə Hacıqabul, Zəngilan və Laçın rayonlarındakı təsərrüfatlarda baş verib. Bəzi hadisələrə görə ödənişlər edilib, digər hadisələr üzrə isə ödənişlərin həyata keçirilməsi üzrə zəruri sənədlər toplanılır. Bütövlükdə isə, 2023-cü ilin yanvar-sentyabr aylarında Aqrar Sığorta Fondu tərəfindən kənd təsərrüfatı heyvanlarının tələf olması üzrə fermer və təsərrüfatlara 624 min manat sığorta ödənişi həyata keçirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Aftandil HACIYEV,**
**sabiq sığorta işçisi**

Ölkəmizdə sığorta bazarının inkişaf etdirilməsi Azərbaycan hökumətinin daim diqqətində olub. Sığorta iqtisadiyyatın inkişafı üçün çox vacib bir mexanizm, təkrar istehsalın təşkili üçün ən mühüm sahədir. Onu da qeyd edim ki, hazırda respublikamızda qeyri-neft sektoruna, xüsusən də aqrar sahəyə güclü dövlət dəstəyi mövcuddur. Məlum olduğu kimi, aqrar sektor təbii fəlakətlərin təsirinə ən çox məruz qalan sahələrdən biridir. Yəni, təbii fəlakətlərdən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərə külli məbləğdə ziyan dəyir. Bu ziyanın ödənilməsinə təminat yaratmaq məqsədilə ölkə Prezidenti İlham Əliyevin 19 avqust 2019-cu il tarixli fərmanı ilə "Aqrar sığorta haqqında" Qanun qəbul edilib. Həmin qanun təbii fəlakətlərdən kənd təsərrüfatına dəyən zərərin ödənilməsinə təminat yaradır.

Ölkəmizdə hər il dövlət büdcəsindən sığorta haqlarının ödənilməsi üçün təqribi hesablanmış sığorta haqlarının 50 faizi qədər vəsait ayrılır. Qalan 50 faiz isə sahibkarlardan toplanmış sığorta haqları hesabına ödənilir. Bu da kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün yüksək diqqət və təminatdır. Bütün təbii fəlakətlərdən: sel, daşqın, donvurma, dolu, güclü külək, yanğın və digər təbii fəlakətlərdən dəyən ziyanın Aqrar Sığorta Fondu tərəfindən ödənilməsi üçün sahibkarlar mütləq şəkildə qanunvericiliyə uyğun olaraq təsərrüfatları haqqında vaxtında məlumat verməli, müraciət etməli və əkin sahələrini sığorta etdirməlidirlər. Təəssüf ki, bəzi sahibkarlar sığortaya etinasız münasibət bəsləyir, "heç bir şey baş verməz" düşüncəsi ilə sığorta müqaviləsi imzalamaqdan boyun qaçırırlar. Lakin təbiət hadisələri baş verdikdə onlara məxsus kənd təsərrüfatı bitkilərinə, heyvanlarına, əsas vəsaitlərinə, eləcə də daşınmaz əmlaklarına külli məbləğdə ziyan dəyir. Bu ziyanın qarşılanmasının ən düzgün, doğru yolu isə sığorta olunmaqdır. Bununla onlar özlərinə yüksək təminat yaratmış olurlar.

Dövlət də fermerlərə kənd təsərrüfatı məhsullarının istehsalına görə lazımi dəstək göstərir, sığorta hadisələrindən dəyən ziyanın tən yarısını büdcə vəsaitləri hesabına ödənilməsini öz üzərinə götürür. Bu da ölkəmizdə sahibkarlara göstərilən diqqət və qayğının təzahürüdür. Hesab edirəm ki, sahibkarlar Aqrar Sığorta Fondunun yaratdığı şəraitdən, onlara verilən bu imtiyazlardan lazımınca yararlanıb əkin sahələrinin, payızlıq buğdanın, yazlıq əkinlərin, mal-qaranın sığorta olunmasına çalışmalıdırlar.

# "Mənə Puşkini verin, mən Belinski olum"

**Müsahibimiz Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadədir**



*(əvvəli qəzetin 20 dekabr 2023-cü il tarixli sayında)*

## "Gərək şüurumuz da azadlığa çıxsın..."

***– Düşüncənin ilk məhsulu sözdür və yazıçının vəzifəsi sözü azadlığa qovuşdurmaqdır. Müasir ədəbiyyatımızda söz bu qədər azad ikən nədən əsrin nadir sənət əsərləri yaranmır?***

– Çox maraqlı sualdır. Mən həmişə yazıram ki, ən böyük milli sərvətimiz Sözdür. Söz tarixin anasıdır. O, tarixi izah və təsdiq edir, əbədiləşdirir: ədəbiyyat əbədiyyətdir. Bədii ədəbiyyat tarixi qoruyur, onu əsrlərin və illərin arxasından insanların həyatına və yaddaşına gətirir. Bədii ədəbiyyat özündə millət haqqında həqiqətləri gizlədən tarixi arxiv və muzey fondlarından çıxararaq canlandırır. Arxivdə Sözün faktı, sənədi, panteonda cansız heykəli, yaddaşda ruhu yaşayır. Söz də su kimi, hava kimi, od-ataş kimi vulkan və zəlzələ kimi, dağ və dəniz kimi canlıdır. Fəqət, Sözün dilini bilmək lazımdır. Sözün dilini bilməsən, onu idarə edə bilməzsən. İdarə olunmayan söz vulkan kimi, zəlzələ kimi dağıdıcı ola bilər. Söz qəlbdən gəlməli, lakin şüurla, düşüncə ilə idarə olunmalıdır. Poetik söz dəli kimidir...

Söhbətimizdən bir qədər kənara çıxıb deyim ki, pandemiyadan sonra Azərbaycanda ünsiyyət mədəniyyəti zəifləyib. İnsanlar əvvəllər bir-birlərini sevirdilər. Hətta totalitar rejimdə insanlar daha mehriban idilər. İndi insanlar bir-birindən qorxur, xoflanır, uzaqlaşır. Cəmiyyət arasında soyuq küləklər əsir, gözəgörünməz bir pərdə yaranıb. Həmçinin cəmiyyətlə hakimiyyət arasında belə bir pərdə əmələ gəlib. Bu, bizdən asılı deyil, təbii, tarixi bir prosesdir.

Qaldı sözün qüdrətinə, bunu bir hekayətlə sizə açıqlamaq istərdim. Keçmiş zamanlarda qəddar bir şah var imiş. Ölkədəki ziyalılardan çox qorxduğundan onları zindana salıb, bir parç iylənmiş su, bir parça da quru çörək verirmiş. O adamlar da yeddi gündən sonra ölürmüş. Zindana salınanlardan biri gözlənilən vaxtda ölməyəndə mühafizə başçısı gəlib şaha deyir ki, şah sağ olsun, filan alim iki həftədir ölmür. Şah deyir, "onu çağır görüm niyə ölməyib". Alimi şahın hüzuruna gətirirlər, deyir: "Ölməməyinin səbəbini desən, səni zindandan azad edərəm". Deyir: "Şah sağ olsun, sən məni zindana salıb iylənmiş su və quru çörək verdin. Mən su ilə söhbət etdim. Suya dua oxudum. Bundan sonra su canlandı, üzümə güldü. Ondan sonra mən onu içdim və beləcə ölmədim".

Xətai nə deyir?

*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı.*

Sözdən qiymətli heç nə yoxdur. Atalar deyir: "Gedər xəncər yarası, getməz söz yarası". İndi sizə bir fikir deyirəm, xahiş edirəm onu yazın: Ölkəmiz azadlığa çıxıb, müstəqillik qazanmışıq, amma özümüz hələ azadlığa çıxmamışıq. Şüurumuz hələ azadlığa çıxmayıb. Azərbaycan cəmiyyəti hələ müstəqilliyin nə olduğunu dərk edə bilmir. Müstəqillik düşüncəsi ilə yaşayanların əvəzinə Vətəni satanlar, korrupsionerlər, şəxsi mənafe güdənlər, əyalətbazlar meydana gəldi və onlar elə anlayırlar ki, elə müstəqillik belə olur.

Füzuli deyir ki, "şair söz gözəlinin nazını çəkməlidir". Söz gözəli durub mərkəzdə, amma heç kim cəsarət edib ona yaxınlaşa bilmir. Çünki ona yaxınlaşmaq üçün heys lazımdır. Heys nədir? İlhamdır, ruhdur. Yazıçı Hüseynbala Mirələmovun əsərlərindən birinə yazdığım ön sözdə deyirəm ki, müsəlmanlar deyir, Allahın 99 adı var. Mən isə 100-cü adı tapmışam, bu EŞQdir. Allah sevən ürəklərdə gecələyir. Kitabi Dədə Qorqudda deyilir:

*Ucalardan ucasan,*
*kimsə bilməz necəsən.*

Eynən də Füzuli, Nəsimi belə deyir. Nəsimi deyir, mən "gövhəri-la məkanam". O, Allahın adından danışır. Həqiqətən, Allahın məkanını heç kim bilmir. Çünki O, sevən insanın qəlbindədir.

## "Millətə xidmət etməyən ədəbiyyat kimə lazımdır?"

***– Deyirsiniz, ədəbiyyatda söz ilahi vergidən, vəhidən sonra əsas vasitə, düşüncənin ifadəsi sayılır. Amma müasir yazarlarımızın əsərlərində söz sadəcə ifadə vasitəsinə, lakeyə bənzəyir. Daha çox təfsilat, süjet, gündəlik məişət hadisələri, bəzən intim səhnələr ön plana keçir. Mənə elə gəlir ki, söz ildırımdan doğmalıdır ki, oda, alova çevrilə bilsin. Müasir Azərbaycan nəsrində ildırım kimi çaxan bir əsər varmı?***

– Söz, həqiqətən, ildırım kimi çaxmalıdır. İldırım harda yaranır? Səmada. O sözü yazıçının qəlbi yaratmalıdır. Peyğəmbərlərə vəhy verilib. Böyük yazıçılara fəhm verilib. Füzuli "anla" demir. Deyir, "fəhm qıl". Yazıçının fəhm etmək təfəkkürü, ilhamı olmalıdır. Məsələn, bəzən çox maraqlı, orijinal bir fikrimi oxuyub məndən soruşurlar ki, bunu hardan oxumusan? Deyirəm, heç yerdən, fəhm etmişəm. Oxuduqlarım, öyrəndiklərim əsasında məntiqlə bu fikrə gəlmişəm ki, bu belə ola bilər.

Nizami deyir ki, "əvvəl peyğəmbərlər deyib, sonra şairlər". Şairlər, yazıçılar Allaha yaxın, seçilmiş adamlardır. Ona görə də xalq, cəmiyyət onlara ehtiramla yanaşır. Düzdür, indi bizim respublikada yazıçıya o hörmət yoxdur, amma yazıçı da yoxdur.

***– Bilmirəm nə qədər doğrudur, mən müasir ədəbiyyatın əsas problemlərini və onun dərk edilməsini, ilk növbədə, yazıçı dediyimiz insanın ədəbi şüurun ilahi sözlə ucaldılan ecazkar saraylara baş vurmaq istəməməsində görürəm.***

– Sizin fikrinizlə razı deyiləm. Hər bir yazıçı istəyər ki, onun əsəri məşhur olsun. Xalqı bu əsəri sevsin, millətə xidmət etsin. Şəxsən mənim ədəbiyyatşünas alim kimi bir şüarım, iki həqiqətim var: Həqiqətin biri millətdir, biri dövlət. Mən taxt-taca hörmət etməyi ziyalılığın və vətəndaşlığın şərti hesab edirəm. Qaldı millətə, millətə xidmət etməyən ədəbiyyat heç kimə lazım deyil.

Sizin "söz sarayı tikməyə yazıçının istedadının gücü çatmır" fikrinə gəldikdə isə, dostlarım məndən inciməsin, yenə deyirəm, onlar nə Tolstoydur, nə də Hüqodur. Bizdə o səviyyədə yazıçı yoxdur, ona görə də yüksək dəyərli bədii əsərlər yaranmır.

***– Mənə elə gəlir, müasir ədəbiyyatın bir problemi, böhran aspekti də, istər nəsrdə olsun, istər poeziyada, janr kasadlığından, keçmiş nailiyyətlərdən imtina edilməsindən ibarətdir. Siz necə düşünürsünüz, müasir ədəbiyyatımızı janr kasadlığında qınamaqda haqlıyammı?***

– Mən ona janr kasadlığı deməzdim. Janrı biz nəzəriyyəçilər, tənqidçilər təyin edirik. Yazıçı hər hansı bir ideyanı işıqlandırır. Bizim yazıçıların yazmağa bəlkə də ilhamı, istedadı, fəhmi çatar, amma zamanın aparıcı fikrini, ideyasını tuta bilmirlər. Digər bir səbəb də, bayaq dediyim kimi, bizim yazıçıların içində xofun, qorxunun olmasıdır.

Məsələn, Azərbaycanda bu gün də Hacı Zeynalabdin Tağıyevi düşmən hesab edən adamlar var. Hətta Prezident onun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı sərəncam imzalayanda, onun abidəsi qoyulanda çoxları daxilən buna etiraz etdilər ki, "bu kapitalistdir, niyə ona heykəl qoyulmalıdır. Heykəli Tağıyevə yox, Bakıda o binaları tikən memarlara qoymaq lazımdır". Vaxtı ilə mən Hacı Zeynalabdin Tağıyev haqqında yazanda Qazaxdan oxucu Qara Əhmədov yazmışdı ki, sən ürəyimizdə olan tikanı çıxartdın.

Tağıyev böyük şəxsiyyət, messenat, milyonçu idi. Xalq, millət adamı idi. O ölüm ayağında olanda Nəriman Nərimanovu çağırıb deyir ki, "mənim bütün var-dövlətim xalqındır, onu xalqa qaytarın". Bircə Mərdəkandakı bağ evini saxlamaq istəmişdi, onu da əlindən aldılar.

**– Sizə elə gəlmirmi, müasir ədəbiyyatımız klassikadan plagiatlığa daha çox yaxınlaşır, mütaliəli oxucu onun bünövrəsində artıq bəlli olan məşhur interpritasiyaları ayırd edə bilir?**

– Fikrimcə, daha çox mövzu axtarışı zəifdir. Sizinlə bu müsahibədə adi, sadə məsələlərdən danışa bilərik və oxucularınız da onları maraqla oxuyar. Amma biz ədəbiyyatımızın qlobal problemlərindən danışırıq. Bəlkə də çox adam bu söhbətin mahiyyətini, məramını başa düşməsin. Hətta bəzi funksionerlər özləri də başa düşməyəcək və dodaq büzəcəklər. Çünki onların özlərinin həqiqətləri var. Amma o həqiqətlər çox kiçik, cılız həqiqətlərdir.

Mən klassiklərin yazılan bir çox əsərlərə əsərlərindən plagiatdır deməzdim. Bir misal çəkim. Məsələn, mənim dostum, böyük istiqlal şairimiz Bəxtiyar Vahabzadənin bir şeiri var, deyir:

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır demək,*
*Şamın yaşaması yanmağındadır.*

Eynən belə misraları Nazim Hikmət də yazıb:

*Sən yanmasan, mən yanmasam,*
*Necə çıxar qaranlıqlar aydınlığa?...*

Bu bəlkə də plagiat deyil, iki türk şairinin təxəyyül oxşarlığıdır. Bizim bir çox şeirlərimizin mayası sovet dönəmində düşmən hesab olunan Türkiyədə yazıb yaradan Namiq Kamaldan, Tofiq Fikrətdən, Əbdülhəqq Hamiddən, Rza Tofiqdən, Türkiyənin himnini yazan Mehmet Akifdən gəlir. Türk şairlərinə də Füzulidən keçib...

Baxın, Avropada inkişaf sıçrayışlar yolu ilə gedir. Bir mərhələ o biri mərhələni inkar edir. Məsələn, maarifçilik renessansı inkar edir, realizm maarifçiliyi inkar edir. Amma bizim Şərq ədəbiyyatında inkişaf təkamül yolu ilə gedir. Bizdə bir mərhələnin daxilində yeni bir mərhələ yaranmağa başlayır. Şərqdə, bizdə inkişaf daha məntiqli gedir. Bizdə inkarı inkar qanunu özünü doğrultmur.

## "Doğru söz acı olur"

***– Nizaməddin müəllim, yenə deyirəm, əndazəsiz plagiat, piratçılıq, insanların hərisliyi, tənbəlliyi ədəbiyyatı heç də epik etmir. Ədəbiyyat yüksək mənəviyyat, əxlaqdır, müasirlik əksər hallarda onu adi lazımsız qaydalar toplusuna çevirir.***

– Bilirsən, əziz tələbəm, bu işdə bizim mediada günah daha çoxdur. Əvvəllər, deyək "Pravda" və "Kommunist" qəzetində bir məqalə dərc ediləndə hamı özünü yığışdırırdı, heç kim çərçivədən çıxmırdı. İndi bu yoxdur, mətbuat kəskin fikirləri dərc etmir. İkincisi, televiziyalar Azərbaycan mühitini, mənəviyyatını ağlar qoyub. Azərbaycanda doğru, kamil fikir, söz demək üçün mühit yoxdur. Fonoqrama ilə iki mahnı oxuyan müğənni qıza rüşvətxorlar, korrupsionerlər 500 min manatlıq avtomobil, 5 milyonluq villa bağışlayır. Fəxri adlar verirlər. Azərbaycanda heç bir bədii əsərin müəllifi olmayan adamlar Xalq yazıçısı adı ala bilir.

İnsanların icazəsi olmadan onların evlərinə girən televiziyaların nümayiş etdirdikləri ucuz, mənasız şoular "Komedixana", "Bozbaşpikçers", "Bu şəhərdə" və sair kimi verilişlər adamları bezdirib. Tamaşaçıların gülüş mədəniyyəti heçə enib. Yaxud ucuz və adi məişət mövzusundan uzağa getməyən, milli mahiyyətdən, mentalitetdən uzaq olan seriallar insan mədəniyyətinə, əxlaqına nə verə bilər axı? Bu, onu göstərir ki, ssenarilər yoxdur, yazıçılar yaza bilmirlər.

Özümü zorlayıb bəzən seriala baxmaq istəyirəm ki, mahiyyətini anlaya bilim. 40 dəqiqəlik filmdə 20 dəqiqəlik reklam gedir. Həm də hansı və necə biabırçı reklamlar: "Omid", "FAB", "Olveys" və "Proktogel". Bunları hara vururlar, hara qoyurlar onu da göstərirlər. Mən bunu xalqımızın mənəviyyatına, əxlaqına, milli mentalitetinə qarşı terror hesab edirəm. Bütün bunlardan belə nəticəyə gəlirsən ki, mənəviyyatı, əxlaqı, bəzən elə ədəbiyyatı, poeziyanı pula satırıq.

## "Bədii yalanın gerçək həqiqəti"

***– Hardasa oxumuşam ki, ədəbiyyat mütilikdən, mənəvi kölə olmaqdan qurtuluşun bir yoludur. Bu yola çıxanlarımız çoxdurmu?***

– Rus yazıçısı Maksim Qorkinin çox gözəl bir sözü var: "İnsan – bu söz əzəmətlə səslənir". Ədəbiyyat insanın əzəmətini əks etdirməlidir. Ədəbiyyat insanın cılızlığını əks etdirməməlidir. Rus ədəbiyyatında Dostoyevskinin məşhur "Alçaldılmış və təhqir olunmuş insanlar" və yaxud "Cinayət və cəza" adlı əsərləri var. Dostayevski cinayətkar Raskolnikovun obrazını elə yaradır ki, oxucu qarını baltalıyıb öldürən Raskolnikova hörmət edir. Çünki onu əsaslandırır. Bizdə ədəbiyyatda heç nə əsaslandırılmır. Bu da ondan irəli gəlir ki, yazıçılar həyatı bilmir, həqiqəti təsvir etməyə cəsarətləri çatmır. Həyat bir kənarda qalıb, yazıçı öz fantazıyası ilə real olmayan həyatdan danışır.

Səməd Vurğun "Vaqif" dramında Vaqifin monoloqlarının birində deyir:

*Az-az uydururam yeri gələndə*

Füzuli də deyir ki,

*Derlərsə ki, Füzuli, gözəllərdə vəfa var,*
*Aldanma ki, şair sözü əlbəttə yalandır.*

Yarımçıq həqiqətdənsə, bütöv yalan yaxşıdır. İctimai televiziyada "Səhər ovqatı" verilişinə dəvət olunmuşdum. Verilişi aparan gənc xanım dedi ki, "Nizaməddin müəllim, hər şeydən razısınız, bəs nədən narazısınız?" Cavabım onu bir az heyrətləndirdi. Dedim: "Özümə layiq düşmən tapa bilməmişəm".

Görkəmli rus ədibi Maksim Qorki yazıb: "Əgər ağıllıdırsa, düşməndən də öyrənmək lazımdır". 1990-cı illərdə Qarabağ hadisələri başlananda məndən soruşdular ki, sən nə düşünürsən, neyləmək lazımdır, xalq unutqanlıqdan qurtulsun?" Dedim: "Bakıda bir uzunburun erməni heykəli qoymaq lazımdır". Daş atıb başlarını tutdular ki, "sən nə danışırsan?! Biz erməniyə heykəl qoyaq?" Dedim: "Məni düz başa düşmədiniz. O heykəli qoyandan sonra hər gün məktəbliləri gətirib göstərmək lazımdır ki, bax, bu ermənidir, bizim düşmənimizdir. Necə ermənilər edir. Millətin yaddaşında bu qalacaq, deməklə söz orada yuva salan deyil".

***– Kitab qanundur, qanun isə rasional olmalıdır. Bu rasionallıq müasir ədəbiyyatımızda varmı?***

– Bizim türk-islam mühitində kitab deyəndə, həmişə Quran nəzərdə tutulur. Deyirlər ki, "Tövrat" İbrahim peyğəmbərə, "İncil" İsa peyğəmbərə, "Qurani-Kərim" Məhəmməd peyğəmbərə nazil olub. Mənim fikrimcə, bu, bir az fanatizmdir. Məhəmməd peyğəmbər çox ağıllı, müdrik, dərin zəkalı və fəhmli bir insan idi. Ərəb tarixçilərinin özlərinin də yazdığı kimi peyğəmbər cahiliyyə dövründə yaşayırdı və görürdü ki, ərəblər pozulub, paltar geymirlər, səhralarda lüt gəzirlər, yuyunmurlar, çirkindirlər, yollarını azıblar, əxlaqsızlıq baş alıb gedir, mənəviyyat qalmayıb, qadınlar, kişilər zina edirlər. Ona görə də Məhəmməd peyğəmbər insanları inandırmaq üçün ona vəhylər gəldiyini söyləməyə başlayıb. Bunlar qələmə alınıb və rasionallığı, mükəmməlliyi ilə İslamın əsas kitabına çevrilib və bu da ərəb dünyasını, İslam hümmətini intibaha aparıb.

Müasir ədəbiyyatımızda rasionallıq yoxdur. Yaşar Qarayevin dediyi "şüur yoxsulluğu" bu gün də davam edir. Biz birinci Qarabağ müharibəsində məğlub olanda yazdım ki, "məğlubiyyətimizin səbəbi silahımızın gücsüzlüyündən çox, şüurumuzun gücsüzlüyünə dayanır".

## "Belinski göydən gəlməmişdi..."

***– Nəhayət, bilavasitə birbaşa sizə ünvanlanan sual: ədəbi tənqidimiz niyə ciddi yazılarla meydanda görünmür? Nədən indi daha çox bayağı, məzmunsuz, ədəbi mühitdə heç bir reaksiya doğurmayan əsərlərə əsassız təriflər və resenziyalar yazılır?***

– Ədəbi tənqidin əsas vəzifəsi ədəbiyyatın bədiiliyini– fəlsəfi ideyasını və estetik gözəlliyini açmaqdır. Ədəbi tənqid oxucuda bədiiliklə ünsiyyət, təmas yaratmalıdır. Tənqid bədii ədəbiyyatın yiyəsi – sahibidir. O bədii ədəbiyyatın tarixi taleyi üçün məsuliyyət daşıyır. Tənqidin estetik meyarları bədii mahiyyətlə uyğun gəlməlidir. Meyarsızlıq bütün dövrlərdə, xüsusən, müstəqillik dövründə – 1991–2023-cü illərdə ədəbi tənqidimizin əsas nəzəri-metodoloji qüsuru olub.

Dünyada əksər yazıçılar tənqidi bəyənməyiblər, ona laqeyd olublar, onu lazımsız hesab ediblər. XX əsrin böyük yazıçısı və tənqidçisi Seyid Hüseyn "Tənqidsiz ədəbiyyat ormanlarda bitən yabanı ota bənzər" – deyib, ədəbi tənqidin müstəsna əhəmiyyətini qeyd edib. Ədəbi tənqid ədəbi prosesin üzvi bir hissəsi, onu hərəkətə gətirən güc mənbəyidir. Əlbəttə, obyektiv, məntiqə əsaslanan intellektual tənqiddən söhbət gedir...

Həyatda iki insanı özümə müəllim hesab edirəm. Biri Yaşar Qarayevdir, biri də Kamal Talıbzadə. Buna baxmayaraq, mən akademik Məmmədcəfər Cəfərovdan, müxbir üzv Əziz Mirəhmədovdan, çox gözəl professorumuz Kamran Məmmədovdan, Şərqi gözəl bilən Qafar Kəndlidən çox şey öyrənmişəm və onları da özümə müəllim hesab edirəm. Bir gün Azərbaycan Yazıçılar İttifaqının müşavirəsindən çıxıb Sahil bağından gedirdik, soruşdum: "Yaşar müəllim, sizinlə hamı hesablaşır, hamı sizə hörmət edir, bəs niyə bu yazıçıları tənqid etmirsiniz?" Dedi: "Nizaməddin, tənqid etmək yox e, onların adlarını cərgə ilə düzə bilmirəm. Kimisə qabağa salanda ikincisi inciyir ki, niyə onun adını birinci yazmamışam".

Puşkin deyirdi ki, "tənqid ədəbiyyatın vəziyyətini əks etdirir". Ədəbiyyat yoxdursa, tənqid də yoxdur. Bir dəfə mənə dedilər ki, Belinski var, filankəs var. Dedim: "Mənə Puşkini verin, mən Belinski olum". Belinski göydən gəlməmişdi, Puşkindən yaza-yaza Belinski olmuşdu. Mən kimdən yazım? Bu günlərdə mənim "Nəsimi və Füzuli" kitabım çapdan çıxıb, indi onlardan yazıram...

Belinskinin ən yaxşı məqaləsi "Qoqola məktub" idi. Qoqol ömrünün sonuna yaxın dinə yuvarlandığına görə, Belinski onu tənqid edirdi. Beləliklə, rus ədəbiyyatı da, rus ədəbi tənqidi də inkişaf etdi. Bir dəfə Turgenev "Sovremennik" jurnalının redaktoru Nekrasovun yanına gəlir və deyir: "Ya mən, ya da Dobrolyubov". Nekrasov da bir az əvvəl Dobrolyubovun "Əsl gün nə vaxt gələcək" adlı tənqidi məqaləsini vermişdi. Nekrasov deyir: "Dobrolyubov". Turgenev kimi bir yazıçını deyil, Dobrolyubovu seçir. Amma, əslində, o, həqiqəti seçir.

Bütün türk, müsəlman və Azərbaycan dünyası bir şey bilir: haqq, ədalət. Mən həmişə belə düşünmüşəm ki, ədalətli olmaq qəhrəmanlıqdır. Bunu yazmışam və müsahibələrimdə də söyləmişəm. Böyük Mirzə Cəlil nə yazırdı: "Sözün doğrusunu danışmaq hünərdir!" Çətindir tənqidçi olmaq, çətindir. Mən həmişə demişəm:"Layiq olmayan tərif ən sərt tənqiddir".

Başqa bir məsələni də demək istərdim. Rəhmətlik Mirzə Ələkbər Sabir 49 yaşında bağrı qan olub haqq dünyasına qovuşdu. Nə yazır, baxın:

*Şairəm, çünki vəzifəm budur əşar yazım,*
*Gördüyüm nikü-bədi eyləyim izhar, yazım,*
*Günü parlaq, günüzü ağ, gecəni tar yazım,*
*Pisi pis, əyrini əyri, düzü həmvar yazım,*
*Niyə bəs böylə bərəldirsən, a qarə, gözünü?*
*Yoxsa bu ayinədə əyri görürsən özünü?!*

Son illər Azərbaycan cəmiyyəti böyük eyforiya yaşayır. 44 günlük müharibədə Ordu, Xalq və Prezident birləşdi, həmrəy oldu, gənc əsgərlərimiz gülə-gülə bu Vətən üçün şəhid oldular. Bu faciədir, kədərdir, amma qürurdur. Gəlin görək ədəbiyyatımız bu Zəfərə layiqdirmi? Hanı 30 illik işğala məruz qaldığımız dövrdə yaranan ədəbiyyat? Yoxdur. Qarabağla bağlı bir Fazil Güneyin "Qara qan" romanı var, bir də Hüseynbala Mirələmovun "Xəcalət" povesti...

## "Azərbaycan dramaturgiyası İlyas Əfəndiyevlə qurtarıb"

***– Nizaməddin müəllim, son sualımız Azərbaycan dramaturgiyası ilə bağlıdır. Bu gün teatrlarımızın afişasına nəzər salanda ancaq klassiklərimizin əsərlərinin adını görürük. Nədən belə, bəs müasir dramaturqlarımız haradadır?***

– Bilirəm, dram əsərləri yazan dostlarım məndən inciyəcəklər. Məsələn, Anar, Elçin, Əli Əmirli, Firuz Mustafa və sair. Amma deyəcəm! **Azərbaycan dramaturgiyası İlyas Əfəndiyevlə qurtarıb.** Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı. Bunlardır bizim dramaturqlarımız. İlyas Əfəndiyev teatrımızı 50 il çiyinlərində daşıdı, 22 pyes yazdı. İndi pyes yoxdur. Var, amma onlara yüksək ədəbi nümunə deməyə dilim gəlmir...

Bir gün teatrda belə pyeslərin birinə baxırdım, yanımda oturan tamaşaçı mənə çönüb dedi ki, Nizaməddin müəllim, deyəsən, bunu mən haradasa oxumuşam. Dedim: "Yox, oxumamısan, sadəcə bu ideya məlumdur. Dünya ədəbiyyatında bu var".

Ona görə də tamaşaçı teatra getmir. Çünki yaxşı pyeslər, ssenarilər olmadığı üçün aktyorlar cılız, mənasız, yadda qalmayan tamaşalarda oynamalı olurlar. Məmmədrza Şeyxzamanov öz müəllimi, böyük sənətkarımız Mirzağa Əliyevdən danışanda deyirdi ki, "Mirzağa müəllim mənə deyirdi, Məmmədrza, nəbadə, nəbadə güldürməyə çalışasan. Sən oynunu oyna, tamaşaçı özü güləcək". Amma bizimkilər indi güldürməyə çalışırlar. Ona görə də ötəri, bayağı gülüş yaradırlar.

Görün, Müşfiq Sabir haqqında nə yazır:

*O güldü ağladı, ağladı güldü.*
*Gülüşü hıçqırdı, fəryadı güldü.*

Teatrın maskasında iki hissə var, bir göz ağlayır, biri gülür. Gülüş ağlamalı vəziyyətlərdə tamaşaçını güldürməlidir. Gülüşün kökündə eybəcərliklər yatır, bu zaman gözəllik bitir. Mən bunları görkəmli sənətkarımız Hacıbaba Bağırov haqqında yazdığım "Hıçqıran gülüşlər" kitabında ətraflı yazmışam.

Əslində, indi qəhrəman, yaxud dahi olmaq üçün Azərbaycanda çox gözəl şərait var. Çünki xalqımız qalibdir, müharibə Zəfərlə bitib. Lev Tolstoy niyə böyük yazıçı sayılır? Çünki "Hərb və sülh" kimi nəhəng və monumental bir əsər yazıb. O, bu əsərdə müharibənin təsvirini deyil, fəlsəfəsini əks etdirə bilib. Bax, bunu bacaranlarımız azdır...

***P.S. Müsahibəni bu yerdə bitirsək də, söhbətimiz bitmədi. Nizaməddin müəllim deyir, "hələ danışılası və deyiləsi çox şeylər var, lazım bilsəniz, onlar haqqında da növbəti görüşlərimizin birində söhbət açarıq". Əlbəttə, lazım bilirik və ən qısa zamanda uzun illər kölgədə qalıb oxucunu narahat edən bir çox ədəbi problemləri də Nizaməddin müəllimlə müzakirəyə çıxaracağıq.***

*Müəllimin müsahibəsini*
*qələmə aldı tələbə*
*İlqar RÜSTƏMOV*

## Heydər Əliyev – 100

# FHN Naxçıvanda Ulu öndərin yubileyini qeyd edib

**Dünən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən təntənəli toplantı keçirilib.**



Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycanın fövqəlada hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli və nazirliyin əməkdaşları iştirak ediblər.



Heydər Əliyev Sarayında keçirilən yuniley məclisində nazirlikdə hazırlanmış "Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi" filmi nümayiş olunub. Sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli iştirakçıları salamlayıb, Fövqəladə Hallar Nazirliyinin Heydər Əliyevi xalqımıza bəxş etmiş bir şəhərdə keçirdiyi toplantının Ulu öndərin xatirəsinə ümumxalq ehtiramının daha bir göstəricisi olduğunu söyləyib.

O bildirib ki, ulu öndər Heydər Əliyev ömrünü xalqına və Vətəninə həsr edib, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin əsasını qoyub. İstər Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə Ümummilli liderin ömür yolu, bütövlükdə, Azərbaycana xidmətdə keçib. 1990–1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən Ümummilli lider müstəqil dövlətçiliyimizin əsaslarını burada formalaşdırıb. Heydər Əliyev ölkəmizi müstəqilliyin ilk illərində düşdüyü ağır siyasi, iqtisadi və sosial böhran vəziyyətindən çıxararaq dövlətçiliyimizi və müstəqilliyimizi qoruyub.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, 1993–2003-cü illərdə dahi şəxsiyyətin rəhbərliyi ilə torpaqlarımızın işğalının qarşısı alınıb, sosial-iqtisadi inkişaf strategiyasının əsası qoyulub, ordu quruculuğuna başlanılıb, vətəndaş həmrəyliyi təmin olunub. Ölkəmizdə mütərəqqi dövlət idarəçiliyi sistemi formalaşdırılıb, əhalinin rifahı yüksəldilib. Milli həmrəylik və bütövlüyü ehtiva edən azərbaycançılıq məfkurəsi dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi kimi milli ideologiyamızı formalaşdırıb, ölkəmizdə davamlı sabitliyə nail olunub.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov xalqımızın böyük oğlu ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan, Vətən qarşısında tarixi xidmətlərindən danışıb: "Ulu öndərin çoxşaxəli fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz, şərəfli bir hissəsini təşkil edir. Onun qurub yaratdıqları, müdrik ideyaları, müqəddəs irsi təkcə dünənimiz və bu günümüz üçün deyil, eyni zamanda, gələcəyimiz üçün də əvəzsizdir".

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazılıb. Bu illər ərzində ictimai-siyasi sabitlik və təhlükəsizlik təmin olunub, dövlət idarəçiliyi mexanizmi yenidən yaradılıb, genişmiqyaslı islahatlar həyata keçirilib, ölkəyə xarici sərmayələr cəlb edilib və ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilib. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm, zəngin siyasi təcrübə, möhkəm iradə və ən əsası, hədsiz Vətən sevgisi sayəsində reallaşdırdığı nəhəng işlər Azərbaycan tarixinə silinməz qızıl hərflərlə yazılıb.



Nazir daha sonra qeyd edib ki, Ulu öndərin müqəddəs yolunu uğurla davam etdirən, ata vəsiyyətini şərəflə yerinə yetirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində qazanılan tarixi Zəfərin davamı olaraq "Heydər Əliyev İli"ndə lokal antiterror tədbirləri ilə ölkə ərazisində dövlət suverenliyimizi tam bərpa etdi.

Sonda nazir Kəmaləddin Heydərov vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətçilik xəttinə sadiq qalaraq bundan sonra da bütün qüvvə və bacarığını müstəqil respublikamızın yüksəlişi, tərəqqisi naminə səfərbər edəcəkdir.

Tədbirdə digər çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb, müasir Azərbaycan dövlətinin Heydər Əliyevin şah əsəri olduğunu iftixar hissi ilə dilə gətiriblər. Tədbir bədii hissə ilə davam edib.

**XQ**

# Diplomatiya könüllüləri AZƏRTAC-da



**Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə nazirliyin nəzdində fəaliyyət göstərən diplomatiya könüllüləri üçün ənənəvi olaraq "Diplomatiya həftəsi" layihəsi həyata keçirilir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Diplomatiya həftəsi" çərçivəsində layihə iştirakçıları dekabrın 21-də Azərbaycan Dövlət İnformasiya Agentliyində olublar.**

Diplomatiya könüllüləri əvvəlcə Ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, Müzəffər Ali Baş Komandanın Vətən müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotolara baxıblar.

İştirakçılar AZƏRTAC-ın şəhid jurnalisti Məhərrəm İbrahimovun xatirə guşəsi ilə tanış olublar.

Tələbələrlə görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev müasir Azərbaycan mətbuatının inkişafında və formalaşmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindən söz açıb.

Sonra tələbələrə AZƏRTAC-ın fəaliyyət istiqamətləri barədə məlumat verilib.

**XQ**

## Özbəkistan xəbərləri

# Daşkənddə beynəlxalq Nizami konfransı

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti ilə birgə "Nizami Gəncəvi yaradıcılığında türkçülük məfkurəsi" adlı beynəlxalq elmi konfrans keçirilib.**

İştirakçılar mərkəzin foyesində təşkil olunan "Nizami Gəncəvidən başlanan Şərq intibahı" adlı kitab sərgisi ilə tanış olublar. Sərgidə Mədəniyyət Mərkəzinin özbək dilində nəşr etdiyi kitablar da yer alıb.

AMM-nin direktoru Samir Abbasov Nizami Gəncəvi yaradıcılığının Azərbaycan və Türk dünyası mədəniyyəti, ədəbiyyatının qüruru olduğunu vurğulayaraq, dövlətimizin dahi mütəfəkkirin irsinin öyrənilməsi, onun əsərlərinin tədqiqi, nəşri və təbliğini diqqət mərkəzində saxladığını bildirib.

DDPU-nin rektoru, professor Abduqaffor Qırğızbayev böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının Türk dünyası ilə yanaşı, bütün Şərq aləminə böyük təsir göstərdiyindən və bu təsirin ədəbiyyatla yanaşı, mədəniyyət, musiqi, fəlsəfi təfəkkürdə də biruzə verməsindən söz açıb. Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri, professor Nurbay Cabbarov, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Erkin Nuriddinov Nizami Gəncəvi yaradıcılığından Türk dünyasının böyük sənətkarları Əlişir Nəvai, Məhəmməd Füzuli və digər şairlərin bəhrələndiyini söyləyib.

Türkiyəli alim, doktor Fikri Aydemir, azərbaycanlı alimlərdən dosent Əzizağa Nəcəfov, filologiya üzrə fəlsəfə doktoru Tünzalə Seyfullayeva, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, özbəkistanlı alimlərdən dosent Salimaxon Eşanova, dosent Mahbuba Orazbayeva Nizami Gəncəvi irsinin tədqiqi və təbliği istiqamətindəyeni araşdırmalardan söz açıblar, maraqlı təkliflər səsləndiriblər.

Konfransda Türk dünyası nizamişünas alimlərindən ibarət "Beynəlxalq Nizamişünaslıq elmi tədqiqatlar cəmiyyəti" təsis olunub, bu qurumun gələcək fəaliyyət strategiyası müzakirə edilərək qəbul olunub.

# Kokand muzeyində Azərbaycan milli stendi

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Fərqanə vilayətinin Kokand şəhərindəki Beynəlxalq Sənətkarlıq muzeyində Azərbaycan əl sənətinə aid daimi stendin açılışı olub.**



Kokand şəhər hakimi Maruf Usmanov Azərbaycan və Özbəkistan arasında yüksək səviyyəli münasibətlər, son zamanlar inkişaf edən əlaqələrimizdən danışıb. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov "Heydər Əliyev ili" münasibəti ilə Özbəkistanın Kokand şəhərində yaradılan muzeydə Azərbaycan əl sənətinə dair eksponatların nümayiş etdirilməsinin milli mədəniyyətimizin geniş təbliğinə şərait yaradacağını bildirib.

Kokanddakı Beynəlxalq Sənətkarlıq Muzeyinin direktoru Xeyrulla Zakirov və "Hunarmand" (Əl sənəti) Assosiasiyasının Fərqanə vilayəti üzrə rəhbəri Rəsul Mirzaahmedov muzeydə yaradılan stenddə Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, sənətkarların istedadını nümayiş etdirən əl işləri, digər eksponatların daim göstərilməsinin qardaşlığımızın nümunəsi olduğunu bildiriblər.

Sonra milli stendə baxış keçirilib. Burada Azərbaycan xalçası, kəlağayılar, tikmə sənətinə aid işlər, ağac üzərində oyma ilə hazırlanan əl işləri sərgilənir. Sərgidə Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Xurşidbanu Natəvan və s. özbək dilinə tərcümə olunan əsərləri də diqqət çəkir.

***Qulu KƏNGƏRLİ***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd – Kokand**

# Azərbaycan – Türkiyə Birgə Komissiyasının 3-cü iclası

**Dekabrın 21-də İstanbulda keçirilən Azərbaycan–Türkiyə Turizm üzrə Birgə Komissiyasının 3-cü iclasında turizm sahəsində prioritet əməkdaşlıq məsələləri, turizm təlimləri, biznesin inkişafı və turizm infrastrukturuna investisiyalar və turizm məhsulları, həmçinin növbəti dövr üzrə Birgə Fəaliyyət proqramının hazırlanması və digər məsələlər müzakirə olunub.**



İclas çərçivəsində turizm sektorunda insan resurslarının inkişafı, turizm və rekreasiya zonalarının yaradılması, infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təcrübə mübadiləsi, beynəlxalq platformalarda birgə təqdimatların keçirilməsi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir zamanı Azərbaycan Turizm Agentlikləri Assosiasiyası (ATAA) ilə Türkiyə Səyahət Agentlikləri Birliyi (TÜRSAB) arasında görüş keçirilib.

Sonda 2023-cü il üzrə Birgə Fəaliyyət Planı çərçivəsində həyata keçirilmiş məsələlər qiymətləndirilib və 2024-cü il üçün yeni Birgə Fəaliyyət Planı hazırlanıb. İşçi qrupunun növbəti görüşünün 2024-cü ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib.

**XQ**

Sevinc Mustafayeva – 90

# Ehtiramla anılan alim və pedaqoq

**Bir əsrdən artıq zəngin və şərəfli tarixi olan Azərbaycan Dövlət Aqrar Universiteti özünün tanınmış məzunları ilə həmişə qürur duyub. Onların arasında görkəmli alimlər, böyük ziyalılar çox olub. Tanınmış alim Sevinc İmam qızı Mustafayeva isə bu ali təhsil ocağının həm məzunu, həm də müəllimi kimi ehtiramla xatırlanır.**



Əslən ölkəmizin dilbər guşəsi Qax rayonunun məşhur İlisu kəndindən olan Sevinc Mustafayeva 1933-cü ildə Bakıda, alimlər ailəsində dünyaya gəlib. Atası İmam Mustafayev biologiya elmləri doktoru, Azərbaycan EA-nın həqiqi üzvü olub, 1954–1959-cu illərdə respublikamıza rəhbərlik edib. Daha sonra isə institut direktoru, həmçinin SSRİ EA Əlaqələndirmə Şurasının üzvü, Genetika və seleksiya problemlərinə dair Elmi Şuranın sədri olub. Anası Lətifə xanım isə Azərbaycan Dövlət Universitetinin dosenti idi.

Sevinc xanım 1951-ci ildə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasına qəbul olunur. Bir il sonra, vaxtilə atasının da həm məzunu olduğu, həm də dekan, kafedra müdiri, elmi işlər və tədris hissəsi üzrə direktor müavini işlədiyi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (ADAU) aqronomluq fakültəsinə köçürülür. 1957-ci ildə buranı fəqrlənmə diplomu ilə bitirir. 2 il Azərbaycan EA-nın Genetika və Seleksiya İnstitutunda işlədikdən sonra əmək fəaliyyətini Kənd Təsərrüfatı İnstitutunda davam etdirir. O, burada assistent, fakültə dekanının müavini, baş müəllim, dosent, kafedra müdiri və dekan əvəzi vəzifələrində işləyir.

S.Mustafayeva 1964-cü ildə Ümumittifaq Bitkiçilik İnstitutunda uğurla namizədlik dissertasiyası müdafiə edərək, biologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Genetika, seleksiya, tarla, meyvə və tərəvəz bitkilərinin toxumçuluğu fənlərindən mühazirələr aparıb.

Türk, rus, alman və fransız dillərində sərbəst danışan alim bir sıra beynəlxalq sessiya və yığıncaqlarda, o cümlədən, 1968-ci ildə Yaponiyada keçirilmiş XII Beynəlxalq genetiklər konqresində iştirak edib. Bir neçə dəfə keçmiş İttifaqın tanınmış ali məktəblərində ixtisasartırma kurslarında təhsil alıb. Onlarla monoqrafiya, tədris vəsaiti və elmi məqalələrin müəllifidir.

Əsl pedaqoq, alim, Vətəninə, torpağına, xalqına sadiq, kişi xarakterli bir insan olan Sevinc Mustafayeva tələbələrinə xüsusi qayğı ilə yanaşıb, gənc müəllimlərə, xüsusilə də alim olmaq istəyənlərə ayrıca diqqət göstərib. Bu gün də qədirbilən ADAU kollektivi onu hörmət və ehtiramla xatırlayır.

**Nizami Seyidəliyev, kənd təsərrüfatı elmləri doktoru, professor:**

– Sevinc xanımı 1977-ci ildən tanıyırdım. Bizə maraqlı mühazirələr oxuyub, həmişə onun dərslərindən əla qiymət almışam. O, dərin biliyə, təmiz ürəyə, tükənməz enerjiyə malik insan idi. İş yoldaşlarına, dostlarına qarşı sadə rəftarı və təvazökarlığı ilə fərqlənirdi. Mənim genetika və seleksiya üzrə alimlik dərəcəsinə yüksəlməyimdə onun müstəsna xidməti olub. Bu qayğını unutmaq olmaz. Dəyərli alim bu gün aramızda olmasa da, daim qəlbimizdədir.

**Firudin Qurbanov, Əməkdar kənd təsərrüfatı işçisi, professor:**

– Sevinc Mustafayeva bizə "Seleksiya" və "Toxumçuluq" fənlərini tədris edirdi.Tələbə-gənclərdə bu sahəyə böyük maraq oyadırdı. Odur ki, mən də gələcək həyatımı bu sahəyə həsr etməyi qərara aldım. Onun sayəsində gələcək elmi rəhbərlərim, məsləhətçilərim – akademik İmam Mustafayev və professor Adilə Əlizadə ilə tanış oldum. Sevinc xanımı "Tələbələrin anası" adlandırırdılar. Kimin nə çətinliyi olurdusa, ona müraciət edirdi. Maddi və mənəvi cəhətdən hamıya dayaq olurdu.

Unudulmaz alim və pedaqoq ömrünün 40 ilini Azərbaycan Kənd Təsərrüfatı İnstitutu ilə bağlayıb, burada pedaqoji, elmi və böyük təşkilati işlər aparıb. "Taxıl və paxlalı bitkilər" sahəvi laboratoriyasının müdiri vəzifəsində çalışdığı dövrdə yerli taxıl bitkilərinin toplanması, öyrənilməsi, saxlanması və onların müxtəlif növ və formalarından geniş istifadə edilməsi problemi Sevinc Mustafayevanın elmi fəaliyyətinin əsas istiqaməti olub. Geniş tədqiqat diapazonuna malik idi, respublikada seleksiya və toxumçuluğun fundamental əsaslarını yaradanlardan idi. Onun rəhbərliyi ilə yeni qarğıdalı sortları yaradılıb.

S.Mustafayevanın rəhbərlik etdiyi laboratoriyada mədəni və yabanı taxıl bitkilərinin 7 mindən artıq müxtəlif genefond nümunələri var. Burada bir çox qiymətli xassələrə malik nadir buğda, arpa, çovdar, tritikale, qarğıdalı sortları toplanıb. Zamanında onun rəhbərliyi ilə tədris-təcrübə təsərrüfatında 7 hektar sahədə səpin aparılırdı. Səpin, biçin, bütün analizlər əl ilə yerinə yetirilirdi. Hər gün səhər erkən sahəyə gedər, onun hazırlayıb gətirdiyi yeməklərlə nahar edərdik. Şər qarışana qədər gənc alimlərlə əkin sahələrini şəxsən müşahidə edərdi.

İnamla demək olar ki, 90 yaşını qeyd etdiyimiz Sevinc Mustafayevanın həyatda səpdiyi toxumlar da saf və məhsuldar olub. Onun Azərbaycan aqrar elminə və milli pedaqogikamıza verdiyi töhfələr həmişə aktual olaraq qalır.

***Nüsrət HÜSEYNOV,***
***Qabaqcıl təhsil işçisi,***
***Maarif RZAYEV,***
***ADAU-nun "Aqrar mütəxəssis" qəzetinin baş redaktoru***

Sənətdə yaşayanlar

# Azərbaycanın rus aktrisası

***Dörd ay vardı, ananın gözləri yol çəkirdi,***
***Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi...***



Azərbaycan televiziyasında yaşlı bir aktrisanın ifasında Süleyman Rüstəmin "Ana və poçtalyon" şeiri səslənəndə hamı diqqət kəsilərdi. Şeir, sanki, onun qaltanlı səsi üçün yazılmışdı. Maraqlı cəhət burası idi ki, milliyyətcə rus olan aktrisa şeiri dilimizdə məxsusi bir koloritlə ifa edirdi. O, Səməd Vurğun adına Rus Dram Teatrının aktrisası Vera Şirye idi.

Atalığı Mirzə Səttarov onu doğma qızı kimi tərbiyə edib. Gənc qızda Azərbaycan dilinə, mədəniyyətinə, teatrına sevgi aşılayıb. Sonra Veranın bir bacısı da olub, adını Leyla qoyublar. Leyla ixtisasca həkim idi, Əməkdar həkim, respublika Ali Sovetinin ilk qadın deputatı olub. Vera isə Azərbaycanın Xalq artisti fəxri adına layiq görülüb.

Veranın atalığının yaxşı səsi varmış. Bülbüllə dost olduğundan qızı ilə tez-tez opera teatrına, onun tamaşalarına gedirmişlər. Sonra Vera indiki Rus Dram, o vaxtkı Bakı Fəhlə Teatrında işləməyə başlayıb.

Gəncliyi müharibə illərinə düşən aktrisa hərbi hissələrdə, sənaye obyektlərindəki çıxışları ilə püxtələşmişdi. Yaradıcılığının ilk illərində qaynar nöqtələrdə çıxışlar edib. Bəlkə ona görə "Ana və poçtalyon" onun dilində bu qədər təsirli alınırdı. Veranın oxuduğu şeirlər döyüşə gedən əsgərlərdə qələbəyə böyük inam yaradırdı.

Aktrisa əsgərlərin yazıb ona verdikləri məktubları da yubatmadan ünvanına, sahibinə çatdırırmış. Xüsusən də bakılıların məktublarını.

Vera Şiryeyə Moskvada qələbə bayramında çıxış etmək də qismət olub. Amma çıxış zamanı göz yaşları ilə sevinc onun simasında bir-birinə qarışıb, çünki həmin vaxtlar Vera həyat yoldaşının "qara kağız"ını almışdı. Çıxışına həzin, kövrək duyğular qatdığı üçün ifası çox təbii alınmışdı.

Vera Şiryenin Bakı səhnəsində yaratdığı obrazlar arasında Nadejda Durova ("Nadejda Durova" pyesi), Laurensiya ("Fuente ovexuna",), Melanya ("Günəşin uşaqları"), Ana ("Bütün oğullarım",), Şəhrabanu xanım ("Müsyö Jordan dərviş Məstəli şah"), kraliça Yelizaveta ("Mariya Stüart), Tereza ("Terezanın ad günü") və başqaları yaddaqalan olub, indi də xatırlanır. Ümumilikdə 200-dən artıq rol oynayıb.

Onu hamı tanıyırdı və sevirdi. Onun Azərbaycan sevgisi bütün Azərbaycanın onu sevməsi ilə qarşılığını almışdı.

Vera Şirye sovet dövründə layiq görüldüyü çoxsaylı mükafatlarla bərabər, müstəqil Azərbaycanın "İstiqlal" ordeni ilə təltif edilib. Prezidentin fərdi təqaüdünə layiq görülən mədəniyyət və incəsənət nümayəndələrinin birincilərindən olub.

Vera Şiryenin 85 illiyində ölkə rəhbəri Heydər Əliyev onu telefonla şəxsən təbrik edib. Ulu öndərin məktubundan: "Bizim respublikamızda zəngin ənənələrə malik olan rus teatrının nail olduğu uğurlarında sizin xidmətləriniz böyükdür. Bu teatrın səhnəsində siz, müxtəlif qütblərdən ibarət olan və bir-birindən qəti surətdə seçilən, hətta teatr cərəyanlarını öz yaradıcılığınızda böyük ustalıqla birləşdirə bilmisiniz. Məhz bunun sayəsində siz ifanızın ustalığı və orijinallığına görə ədəbi teatr tariximizə daxil olan klassik obrazlar yarada bildiniz. Sizin Azərbaycan–rus mədəni əlaqələrinin sarsılmaz inkişafında zəhmətiniz yüksək qiymətə layiqdir".

Xalq artisti Vera Şirye 2003-cü il mayın 1-də 88 yaşında Bakıda dünyasını dəyişib. Fəxri xiyabanda dəfn edilib.

***Ramilə QURBANLI***
***XQ***

Gənclər Kitabxanası – 95

# Yeni nəslin kitab xəzinəsi




**Hər bir xalqın malik olduğu milli-mənəvi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, qorunmasında, təbliğində və gələcək nəsillərə ötürülməsində kitabxanaların rolu əvəzsizdir. Bu il 95 illik yubileyini qeyd edən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası da sırada mühüm yer tutur.**

Bu kitab məbədinin yaranma tarixi 1928-ci ildə kiçik bir qiraət zalından başlayıb. İllər keçdikcə fədakar mütəxəssislərin və kitabsevərlərin birgə səyi nəticəsində kitabxana zəngin fonda və böyük oxucu kütləsinə malik mütaliə ocağına çevrilib. Sonra kitabxana geniş imkanlara malik yeni, daha yararlı binaya köçürülüb. Cəfər Cabbarlının yaxın dostu olmuş aktyor, rejissor, Əməkdar incəsənət xadimi Məmməd Əlili xatirələrində yazırdı: "1957-ci il mənim üçün əziz ildir. Yeni binaya köçdükdən sonra kitabxana sanki yenidən yaranmış, daha da gözəlləşmişdir. Böyük dramaturqumuz Cəfər Cabbarlının adını daşıyan kitabxana mənəvi sənət mülkünə çevrilmişdir".

1976-cı ildə gənclər kitabxanası statusu almış mədəniyyət müəssisəsi hazırda öz ətrafında 16 mindən çox oxucu kütləsi toplayıb. Bu ünvan təhsil prosesinin iştirakçısı, kütləvi mütaliə mədəniyyətinin aşılayıcısı kimi tanınır. Ziyarətçilərinə həm ənənəvi, həm də elektron xidmətlər göstərən 8 şöbədən ibarət kitabxananın fondunda Azərbaycan, rus, ingilis və s. dillərdə bütün elm sahələrini, bədii ədəbiyyat və ensiklopedik nəşrləri əhatə edən 40 min adda 153 min nüsxə kitab cəmlənib. Burada elmi, tarixi, bədii əhəmiyyətini bu günə kimi saxlayan qeyri-latın qrafikalı 1000-dən çox kitabdan ibarət depozitar fond da mövcuddur. Ən "yaşlı" kitab 1891-ci ilə aiddir.

Kitabxanada 2018-ci ildən ALİSA – Azərbaycanın Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi, həmçinin rəsmi sayt üzərindən elektron xidmətlər və istifadəçilərlə virtual ünsiyyət üçün bir sıra yeni funksiyalar tətbiq edilir. Elektron xidmətlərinə daim yenilənən 140 mindən artıq yazını cəmləyən elektron kataloq, 7 min 742-dən çox kitabı olan elektron kitabxana, 20 elektron məlumat bazası, 50-dən artıq nəşr nümunəsi olan dövri nəşrlərin elektron bazası, 200 ədəd səsli kitab fondu daxildir. Oxucular kitabxanaya gəlmədən onlayn xidmətlərdən yararlana bilirlər.

Burada fondun tələblərə uyğun kompektləşdirilməsinə xüsusi həssaslıqla yanaşılır, 20-dən çox nəşriyyatla əməkdaşlıq edilir ki, satınalma layihəsi sayəsində son 2 il ərzində fond 6 mindən çox kitabla zənginləşdirilib. Kitab təbliğatı ilə bağlı olaraq virtual sosial şəbəkələrdən geniş istifadə edilir. Bu gün gənclərin ən çox toplandığı və istifadə etdikləri kitabxananın sosial şəbəkə platformaları yeni kitablar, maraqlı məlumatlar, əlamətdar tarixlərlə əlaqədar hazırlanan multimedia məhsullarının gündəlik paylaşımları ilə ön sıralardadır.



Kitabxanada tez-tez ünlü yazarlarla görüşlər, imza günləri, gənclərin ədəbi-bədii kompozisiyaları, sərgilər və ekskursiyalar təşkil edilir. Yaddaqalan tədbirlərdən Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) rəhbəri, professor Aygün Attarın "Qarabağ zəfəri. 44 günün pərdəarxası", tarixçi alim Ziyad Əmrahovun "İrəvan quberniyasının tarixi (1850–1917-ci illər)" kitablarının, yazıçı-publisist Yunus Oğuzun Vətən müharibəsindən bəhs edən "Cığır" tarixi romanının təqdimatlarını, görkəmli ədəbiyyatşünas alim Qəzənfər Paşayevin 85 illik yubileyini, "Azərbaycan Ədəbiyyat Fondu" və "Azərbaycan–Türkiyə Sosial Tərəqqiyə Yardım" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Müharibə dövrü ədəbiyyatı" mövzusunda dinləmələri qeyd etmək olar.

Son 2 ildə Gənclər Kitabxanasının ideya müəllifliyi ilə ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sənədli materiallar əsasında yazılan "Tariximizin Heydər Əliyev zirvəsi", gənc yazarların Azərbaycanın şanlı Zəfər Tarixi mövzusunda qələmə aldıqları 30-dan çox ədəbiyyat nümunəsinin toplandığı "Sən azadsan" və digər kitablar işıq üzü görüb.

Kitabxana "Heydər Əliyev İli" ilə əlaqədar "Tarix yaradan şəxsiyyət – Heydər Əliyev – 100" layihəsini də həyata keçirib. Layihə çərçivəsində ulu öndərə həsr olunan 4 hissədən ibarət mini-film, virtual kitab sərgiləri, elektron məlumat bazası hazırlanıb, sosial şəbəkələrdə çoxlu sayda paylaşımlar edilib. Həmçinin kitabxananın rəsmi saytında "Heydər Əliyev – 100" adlı bölmə yaradılıb və burada ölkənin aparıcı mətbuat orqanlarında Ulu öndərdən bəhs edilən 100-dən çox məqalə toplanılıb.

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərə və Qarabağda Şəhər günlərinə aid virtual kitab sərgiləri, videomateriallar və elektron resurslar bazası da maraqla qarşılanıb. Kitabxanada müntəzəm olaraq gənclər üçün poliqrafik və veb dizayn mövzusunda təlimlər, şəhər və rayon MKS-lərinin əməkdaşları üçün elektron xidmətlər, treninqlər təşkil edilib. Təlim-tədris prosesindən kitabxananın öz əməkdaşları da kənarda qalmırlar. Son 2 ildə 10 kitabxanaçı kompüter proqramları üzrə tədris kurslarına göndərilib.

Gənclər Kitabxanasının əməkdaşları beynəlxalq konfrans, vebinar, forum və tədbirlərə də qatılırlar. Bir sıra ölkənin məşhur kitabxanaları ilə sıx əməkdaşlıq edilir.

Yubilyar kitabxana özünün müasir texnologiyalarla təchiz edilmiş oxu zalı, zəngin fondu ilə oxuculara daim yüksək xidmət göstərmək əzmindədir. Ən başlıcası isə burada çalışan peşəkar biblioqraf və kitabxanaçılar ziyarətçiləri təbəssümlə qarşılamaqdan, onlara səviyyəli xidmət göstərməkdən hədsiz məmnunluq duyurlar.

***Ə.DOSTƏLİ***
***XQ***

Unudulmayanlar

# Əli Kərimin jurnalist dostu

**Bu sətirlərin müəllifi peşəkar jurnalistikanı ondan öyrənib. 17 yaşımda ilk dəfə Sumqayıtda onun yanında işləmiş, bədii publisistik yazılarını heyranlıqla oxuyub, özüm də onun kimi yazmağa çalışmışam. Bu günlərdə 85 yaşı tamam olan gözəl qələm sahibi Feyzi Mustafayev sevimli və unudulmaz şairimiz Əli Kərimin sumqayıtlı dostu, simsarı idi. Əli Kərim nə qədər orijinal şair idisə, o da bir o qədər ustad publisist idi.**



Onun xatirə gecəsinə gedə-gedə düşünürdüm ki, düz 50 il öncə tanış oplduğum Feyzi müəllim yaşca məndən 2 dəfə böyük idisə, yazı-pozu işində 100 dəfə artıq idi. Yaxın dostu Əli Kərim erkən dünyasını dəyişəndən sonra Feyzi Mustafayevin yazdığı "Dinmə, ey kədər" xatirə-povesti sanki bu itkiyə üsyan idi. İlahi, insan dostu haqqında yazdığı rekviyemdə onun əvəzedilməzliyini necə ifadə edərmiş!

...Sumqayıt Mərkəzi Kitabxanasında xatirə gecəsi davam etsə də, fikrimdə elə o əsər dolaşır. Feyzi Mustafayevin "Haqqım çatmır deyəm: – Bütün yazıçıları götürün, Əli Kərimi mənə verin. Haqqım çatmır deməyə, amma belə demək istəyirəm", – sözlərinin heyrəti könlümü sarır. Mən də düşünürəm ki, kaş Feyzi müəllim yanımızda olaydı, yenə bizə "dərs" deyəydi.

Çıxışlar çox oldu. Hərə özəl bir xatirə danışdı, mərhum yubilyarın yaradıcılığı yetərincə dəyərləndirildi. Amma onun yaxın dostu, Prezidentin fərdi təqaüdçüsü, şair Əşrəf Veysəllinin xatirələri daha təsirli, daha təbii idi.

***Büzüşmüşəm yarpaq kimi,***
***Bükülmüşəm yumaq kimi.***
***Gəl, boynuna uşaq kimi***
***Sarmaşım, Feyzi Mustafa…***

Qeyd edək ki, AYB Sumqayıt bölməsi mərhum publisistin kitablarını latın qrafikası ilə yenidən çap etdirib. Azərbaycan bədii publisistikasında öz imzası, yeri və çəkisi olan Feyzi Mustafayev uzun illər "Sumqayıt", bir müddət də yeni yaradılmış "Mədəniyyət" qəzeti redaksiyalarında çalışıb. Həyatını halallıq üstündə quran, özünü "qələminin fəhləsi" sayanlardan idi. Qısası, xatırlanmağa,yad edilməyə haqqı var Feyzi müəllimin.

Xatirə gecəsinin sonunda bir qrup jurnalistə Sumqayıtın mədəni və ədəbi həyatında xidmətlərinə görə yeni təsis edilmiş Feyzi Mustafayev mükafatları verildi. Qürur duyuram ki, onun adını daşıyan mükafatı alanların sırasında mən də vardım:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Beynəlxalq Rumi konfransı

***Şimali Kipr Türk Cümhuriyyəti Yaxın Şərq Universiteti Rumi Araşdırmaları İnstitutunun təşkilatçılığı ilə Şərqin mütəfəkkir şairi Mövlana Cəlaləddin Ruminin vəfatının 750-ci ildönümü münasibətilə beynəlxalq elmi konfrans keçirilib.***

Şimali Kiprin Yaxın Şərq Universitetində baş tutan 8-ci beynəlxalq Rumi konfransında Şimali Kipr, Türkiyə, Azərbaycan, İran, Tacikistan, Özbəkistan, Pakistan, Türkmənistan, Rusiya, Bosniya və Herseqovina, İraq, Misir və Braziliyadan alim və tədqiqatçılar iştirak edirdilər.

Konfrans açılış mərasimi və plenar iclasdan sonra panellərdə məruzə və müzakirələrlə davam edib.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşları da konfransa distant formada qoşularaq məruzələrlə çıxış ediblər. Muzey əməkdaşlarının iştirak etdiyi bölmə öz işinə tarix elmləri doktoru, professor Şahin Fərzəliyev "Cəlaləddin Rumi və Şəms Təbrizinin dostluğu və Mövlananın "Xamuş" təxəllüsü ilə bağlı bəzi qeydlər" məruzəsi ilə başlayıb. Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq




"Mövlana Cəlaləddin Ruminin poeziyası dünya xalqlarını birləşdirən bir dəyər kimi", Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərmin Əliyeva isə "Cəlaləddin Rumi rübailərinin rübai ənənəsi kontekstində özünəməxsus yeri" adlı məruzələrlə çıxış ediblər.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Rusiya Avropaya eyni cavabı verəcək

**Rusiyanın maliyyə naziri Anton Siluanov bildirib ki, Moskva Avropadakı aktivləri müsadirə olunarsa, əks tədbirlər görəcək. Cavab həm də Avropa İttifaqında dondurulmuş Rusiya fondlarından əldə olunan gəlirlərin mümkün istifadəsi ilə bağlı simmetrik olacaq.**



Yerli KİV-ə müsahibəsində maliyyə naziri bildirib ki, əgər belə bir qərar verilərsə, Rusiya Federasiyasından tamamilə simmetrik cavab veriləcək: “Bizim də kifayət qədər aktivlərimiz var ki, burada dondurulmuş və “C” adlanan hesablarda da var, bunlar qiymətli kağızlar, dividendlər, dost olmayan ölkələrdən olan xarici kontragentlər qarşısında öhdəliklərimizi təşkil edən öhdəliklərdir”.

C tipi hesab qeyri-rezidentlərin vəsaitlərinin bloklandığı bank hesabıdır. O, qeyri-rezidentlər tərəfindən rubl üçün xarici valyutanın alqı-satqısı ilə bağlı əməliyyatlar üçün nəzərdə tutulub. 1 aprel 2023-cü il tarixinə C tipli hesablardakı vəsaitlərin həcmi 477 milyard rubl olaraq qiymətləndirilir.

“Financial Times” xəbər verir ki, G7 ölkələri, Avropa İttifaqı və Avstraliyada Rusiya Mərkəzi Bankının təxminən 260 milyard avro aktivləri dondurulub. Sanksiyalar Rusiyanın Ukraynaya qoşun yeritməsindən sonra tətbiq edilib. Qərb ölkələri bu vəsaitdən Ukraynanın bərpası üçün istifadə imkanlarını müzakirə edirlər. Dondurulmuş Rusiya aktivlərindən əldə edilən gəlirin Kiyevə köçürülməsi ilə bağlı Aİ-də müzakirələr gedir. ABŞ isə gəlirləri yox, aktivləri müsadirə etmək istəyirlər. KİV-in məlumatına görə, Vaşinqton Qərb ölkələrinin özlərini Rusiya–Ukrayna münaqişəsinin qurbanı kimi tanımasını, Rusiyanın aktivlərini ələ keçirib Kiyevə verməyi təklif edib.

***XQ***

# Polşa Aİ-nin lideri ola bilərmi?

**Birləşmiş Ştatlar Polşanın Avropa İttifaqının liderinə çevrilməsini istəyir.**



ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms Obrayen bunu Polşanın xarici işlər naziri Radoslav Sikorski ilə görüşündən sonra “Rzeczpospolita” qəzetinə müsahibəsində deyib.

Ceyms Obrayen yeni Polşa hökumətinin silah tədarükü üzrə ABŞ-la bağlanan müqavilələri qüvvədə saxlamaq niyyətini təsdiqləyib. Amerikalı diplomat, həmçinin Baş nazir Donald Tuskun dövründə Polşa-Almaniya münasibətlərinin yaxşılaşacağına və Varşava ilə Kiyev arasında problemlərin həllinə ümid bəslədiyini bildirib.

Xatırladaq ki, dekabrın 13-də Polşanın yeni Baş nazirinin və Nazirlər Kabinetinin yeni tərkibinin andiçmə mərasimi keçirilib. Donald Tusk çıxışı zamanı Polşanın Avropa Birliyində nüfuzunu bərpa etməyə çalışacağını, həmçinin ABŞ-ın sadiq və etibarlı müttəfiqi olaraq qalacağını vəd edib.

***XQ***

# Kağız, yoxsa rəqəmsal kitab?

**Valensiya Universitetinin alimləri insanların oxuduğunu başa düşməsi ilə bağlı 200-dən çox araşdırmanı təhlil edib və müəyyənləşdiriblər ki, uzun müddət ərzində çap mediasını oxumaq rəqəmsal mediadan altı-səkkiz dəfə daha çox anlama bacarıqlarını artıra bilər. Bu barədə “The Guardian” qəzeti yazır.**

Məqalənin həmmüəllifi Valensiya Universitetinin professoru Ladislao Salmeron deyir ki, asudə vaxtda rəqəmsal oxunma tezliyi ilə mətni başa düşmə qabiliyyəti arasında əlaqə sıfıra yaxındır. Bu, mətnin üslubu ilə bağlı ola bilər. Məsələn, sosial şəbəkələrdə ən çox mürəkkəb sintaksis və arqumentasiyadan məhrum olan danışıq mətnini görürsən. Rəqəmsal mətni oxuyarkən insan ən çox skanlama deyilən işlə məşğul olur, yəni o, rəvayətə tam nüfuz edə bilmir və informasiya materialındakı mürəkkəb əlaqələri tam qavramır.

Rəqəmsal oxuma ən çox uşaqlara mənfi təsir göstərir. Fakt budur ki, onlar, məsələn, telefon və ya planşet-tabletlərdə mətnə baxarkən daxil olan mesajlar onların diqqətini yayındırır. Tədqiqatçılar rəqəmsal mediadan oxumağa qarşı olmadıqlarını, lakin bunun kağızdan istifadədən daha az fayda gətirdiyini qeyd ediblər. Ona görə də mütəxəssislərin fikrincə, məktəblərdə müəllimlər uşaqların çap olunmuş kitablara diqqətini artırmalıdırlar.



Çap ədəbiyyatını, xüsusən, mürəkkəb ədəbiyyatı oxumaq rəqəmsal formatda mətni oxumaqdan daha çox vaxt apara bilər.

***S.ELAY***
***XQ***

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir

Bədii keramika, şüşə və metal – 1 ştat dosent – 1 yer.
Humanitar və ictimai fənlər – 1 ştat baş müəllim – 2 yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq bu ünvana göndərilməlidir.
Ünvan – Bakı şəhəri, Heydər Əliyev prospekti 58.

***REKTORLUQ***

BİLDİRİŞ

“RƏVAN-TURAN" MMC (VÖEN 1403045021) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə ərizə ilə müraciət etmişdir.

e-2-2(113)-6139/2023 saylı işə məhkəmə baxışı 29 dekabr 2023-cü il saat 9.40-a təyin olunmuşdur. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

Əlaqə telefonu- (012) 525-20-74.

Ünvan- AZ1040. Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.

İDMAN

# “Qarabağ” Qarabağa qayıtdı

**30 ildən sonra ilk dəfə Azərbaycanın işğaldan azad olunmuş ərazisində möhtəşəm futbol matçı keçirildi. Həyatın bütün sahələrində böyük uğurların qazanıldığı 2023-cü il il daha bir tarixi hadisə ilə əlamətdar oldu.**

Əslində, əzəli və əbədi yurd yerimiz Xankəndidə Azərbaycanın qədim diyarı Qarabağın adını şərəflə daşıyan “Qarabağ” yığması ilə düşmən üzərində böyük Zəfər qazanan hərbçilərimizin komandası – Mərkəzi Ordu İdman Klubunun görüşünün çox dərin rəmzi mənası var.

Xankəndi stadionunda Azərbaycan Prezidenti İlham Əliyevin oyun ərəfəsindəki çıxışında qeyd etdiyi kimi, Qarabağ–Ordu–Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir. Hər dəqiqəsində, saniyəsində belə Qələbə ruhunun yaşandığı möhtəşəm oyunda “Yaşasın Qarabağ!”, “Yaşasın şanlı Ordumuz!”, “Qarabağ Azərbaycandır!” sədaları altında böyük izdiham yaşandı.




Əsl idman mübarizəsi şəraitində başa çatan yarışda “Qarabağ”ın xeyrinə 1:0 hesablı qələbə qeydə alındı. Yeganə qolun sahibi olan “Qarabağ”ın futbolçusu Nəriman Axundzadə isə işğaldan azad olunmuş ərazilərdə 30 ildən sonra keçirilən ilk futbol matçında fərqlənən hücumçu kimi tarixə düşdü.

“Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov oyundan sonra jurnalistlərə müsahibəsində illərlə bu günün həsrətində olduqlarını, məhz Xankəndi stadionunda meydana çıxdıqları üçün çox sevindiklərini deyib. Şəhidlərin qəhrəmanlığı sayəsində Xankəndidə olduqlarını vurğulayan, böyük Qələbəyə görə Prezident İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarlığını bildirən baş məşqçi xalqımıza hər zaman sağlam və xoşbəxt yaşamağı arzulayıb.



Matçla bağlı fikirlərini bildirən Qurban Qurbanov meydanda gərgin mübarizənin getdiyini, qolun son saniyələrdə vurulmasının isə oyunu daha da maraqlı etdiyini söyləyib. Son saniyəyədək mübarizə aparan MOİK komandasını təbrik edən 51 yaşlı mütəxəssis rəqibdən bu cür əzmkar oyun gözləmədiyini də dilə gətirib. Qeyd edib ki, MOİK-in belə mübarizə aparması gələcəyə ümid verir. Onlar da belə bir əlamətdar gündə tarixə düşdülər.

**Baş məşqçi onu da deyib ki, kubok matçlarının hamısını Xankəndidə keçirmək istəyirlər:**

– Finala qədər getsək, burada oynamağı planlaşdıra bilərik. Gələcəkdə bu sahədə addımlar atılacaq. Prezident İlham Əliyev bir neçə aydan sonra Ağdam şəhərində “İmarət” stadionunun yenidən inşasına başlanılacağını bildirdi. Bu məsələyə belə diqqət ayırdığına görə dövlət başçısına minnətdaram. Böyük məmnuniyyətlə orada oynayarıq.

**MOİK komandasının baş məşqçisi Qəzənfər Abbasov tarixi torpaqlarımızda möhtəşəm oyuna görə Prezident İlham Əliyevə və Ordumuza minnətdar olduğunu bildirib:**

– Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik. Onların sayəsində bu gün buradayıq. Meydanda sonadək mübarizə apardıq. Gözəl futbol göstərmək istəyirdik. Hansı komandaya qarşı oynadığımızı yaxşı bilirdik.

**Mütəxəssis “Qarabağ”ın gücünün hər kəsə bəlli olduğunu deyib:**

– Rəqib komandanı təbrik edirəm. Qurban Qurbanov baxımlı oyuna görə mənə öz təbriklərini çatdırdı.

Q.Abbasov onu da bildirib ki, gələcəkdə Premyer Liqada çıxış edə bilərlər. Baş məşqçi ev oyunlarını Xankəndidə keçirməyin onlar üçün şərəf olduğunu da sözlərinə əlavə edib.

Beləliklə, 30 illik həsrətdən sonra doğma stadionuna qovuşan futbolumuz möhtəşəm qələbəsini qeyd etdi. Bu, Azərbaycan xalqının əbədi Zəferidir!

***L.QURBANOVA***
***XQ***

XQ-yə məktub

# Vətən sevgisinin cazibəsi

## *Salyanlı stomatoloqlar nəslinin Rusiyada davamçısı*

**Azərbaycandan uzaqda yaşayıb ürəyi Vətənlə döyünən həmyerlilərimizdən xoş xəbərlər almaq həmişə bizi sevindirir, qəlbimizi dağa döndərir. Qürurlanırıq ki, hansısa soydaşlarımız ölkəmizin xaricində də Azərbaycanı layiqincə təmsil edir. Onlar xalqımızın nələrə qadir olduğunu əməlləri ilə sübut edirlər.**



Redaksiyamıza Rusiyadan daxil olmuş bir məktub məzmunca kövrək olsa da, hər cümləsi sevindirici olduğundan bizi çox duyğulandırdı. Öz uğurlarını Vətənə, ata-baba yurduna və ulularına bağlayan həmin gənc qız qəzetimiz vasitəsilə nailiyyətləri ilə doğmalarını sevindirmək istəyir.

Məktub sahibi Günel Sadıqova Rusiyanın Moskva vilayətinə daxil olan Mıtişi şəhərində 2006-cı ildə doğulub. Lobnya şəhər orta məktəbini isə 2023-cü ildə qırmızı attestat və qızıl medalla bitirib.

Günel yazır ki, onu yaxşı oxumağa anası istiqamətləndirib. Kiçik yaşlarından yaşıdları gəlinciklə oynayanda Günel və onun böyük qardaşı anasının onlar üçün aldığı maraqlı, rəngli kitablarla məşğul olublar. Uşaqlar A.Barto və S.Marşakın şeirlərini bir dəfəyə yadda saxlayıblar. Qızcığaz 4 yaşında oxuyub-yazmağı öyrənməsi ilə evlərinə gələn qonaqlari heyrətləndirib.

**2012-ci ildə 6 yaşlı Günel çiyninə çanta alıb məktəbə getməsini belə xatırlayır:**

– İbtidai sinifdə bir qədər çətinlik çəkdim. Çünki müəllimim çox tələbkar idi. Amma buna baxmayaraq, mən çalışırdım ki, dərslərə elə hazırlaşım ki, müəllimim irad bildirməyə səbəb tapmasın. Rusiyada ibtidai sinif başlanğıc məktəb adlanır. Mən başlanğıc məktəbi bitirəndən sonra orta məktəbdə təhsilimə davam etdim və bütün siniflərdə əlaçı oldum. Sinif rəhbərim Qalina Nikolayevna yaxşı oxuyanlara dəstək olurdu. Məndə böyük potensial olduğunu da ilk dəfə valideynlərimə o, demişdi.

Mən məktəbdə keçirilən bütün tədbirlərdə iştirak edir, müsabiqələrə qatılırdım. Hər il siniflərarası, məktəblərarası olimpiadalarda iştirak edir, prizlər alırdım. 11-ci sinifdə oxuyanda mən şəhər mərhələsində də biologiya üzrə qalib oldum. Bundan sonra atacağım addım bəlli idi. Çünki fikrimi qətiləşdirmişdim, stomatoloq olmaq istəyirdim”.

**Bu sənətə maraq ona nənə - babalarından irsən keçib. Günel 7 yaşı olanda valideynləri ilə Azərbaycana, atasının doğulduğu Salyana gəlir. Yazır ki, orada mən ilk dəfə gördüm ki, diş həkimi olan nənəmin yanına çoxlu insan gəlir:**

– Nənəm onlara böyük həvəslə kömək edirdi. Çox sonralar öyrəndim ki, atamın nənə-babası da Salyanda tanınmış stomatoloqlar olublar. Salyanlılar hələ də pasiyentlərə nəvazişlə yanaşan, onlara doğması kimi xidmət göstərən diş həkimləri Sadıqovları sevgi və qədirbilənliklə xatırlayırlar.

Günel sonda yazır ki, mən elə onda qarşıma ulularımın sənətini davam etdirməyi məqsəd qoydum. Başa düşdüm ki, insanlara sağlamlıq, xoş təbəssüm vermək üçün bacarıqlı diş həkimi olmalıyam.

Günel Samid qızı Sadıqova hazırda Moskvada Piroqov adlna Rusiya Milli Tədqiqat Tibb Universitetinin stomatoloq tələbəsidir. Qazandığı nailiyyətdən çox sevinir. İnanır ki, gələcəkdə bilikli, incə zövqlü stomatoloq kimi insanlara layiqincə xidmət edəcək.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 280 (30396) 22 dekabr 2023-cü il, cümə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

*Hörmətli abunəçilər!*
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Kosmosda “Şam ağacı”?

***NASA teleskopları kosmosda ulduz topasının fotosunu dərc edib. O, Yerdən 2500 işıq ili məsafədə yerləşir və kütləsi Günəşin kütləsindən dəfələrlə böyük olan kosmik obyektlərdən ibarətdir.***



Amma “Yolka”ya bənzərliyi artırmaq üçün NASA əməkdaşları çərçivəni, təxminən, 150 dərəcə fırladıblar. Yəni şimal tərəfi yuxarıya baxır. Şəkildəki mavi və ağ işıqlar rentgen şüaları yayan gənc ulduzlardır. Onları obyektivə yaxalayan da “Chandra” teleskopudur.

Yaşıl rəng 0,9 metrlik WIYN teleskopunun əldə etdiyi görünən məlumatlara uyğundur. Onun köməyi ilə dumanlıqdakı qazın parıltısı qeydə alınıb. Şəkildəki ağ nöqtələr – ön planda və arxa planda olan ulduzlar – samanın infraqırmızı tədqiqatı nəticəsində aşkar edilib.

Ulduzlardan gələn rentgen şüalarını əks etdirən şəklin animasiya versiyası da dərc edilib. Əslində, onlar sinxronlaşmadan yanıb-sönürlər, lakin çərçivələr Şam ağacına bənzərliyi vurğulamaq üçün seçilib.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

## İdman xəbərləri

# Futzal yığmamız mübarizəni dayandırıb

**Futzal üzrə Azərbaycan yığması dünya çempionatının elit mərhələsində son oyununu keçirib.**



Yığma səfərdə Niderland seçməsi ilə mübarizə aparıb. “Topsportsentrum Arena”da keçirilən matçda meydan sahibləri 3:0 hesablı qələbə qazanıblar.

Bununla da, qrup sonuncusu olan Azərbaycan millisi pley-off mərhələsinə çıxa bilməyib.

# FİFA: Millimizin mövqeyi dəyişməyib

**FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb.**




Azərbaycan yığması 1174.22 xalla əvvəlki kimi, 114-cü sırada yer alıb. Siyahıda Argentina seçməsi (1855.2 xal) liderdir. Sonrakı iki yerdə Fransa (1845,44) və İngiltərə (1800.05) qərarlaşıblar.

# Uşaq futbolu seminarı

**“Sabah” Futbol Akademiyasının U-11 və U-12 komandasının futbolçuları üçün “Uşaqların hüquq və maraqlarının qorunması” mövzusunda maarifləndirici seminar təşkil edilib.**



Təlimdə azyaşlılara uşaqların hüquqları və vəzifələri barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Uşaqların mövzu ilə bağlı məlumatlarının möhkəmləndirilməsi üçün müxtəlif əyləncəli oyunlar təşkil edilib.

Qeyd edək ki, gələcəkdə bu cür maarifləndirici seminarların mütəmadi olaraq keçirilməsi nəzərdə tutulub.

***Leyla SABİRQIZI***
***XQ***

# “Ölümsüz ölüm”ün ünvanı

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında elmi fəaliyyəti Azərbaycan tarixşünaslığına qızıl hərflərlə yazılan, fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlarda təbliğ edən, görkəmli şərqşünas-alim, ictimai xadim, akademik Ziya Bünyadovun 100 illiyi münasibətilə “Ölümsüzlüyə qovuşan ölüm” adlı elektron məlumat bazası hazırlanıb.**




Kitabxanadan bildirilib ki, elektron məlumat bazasında akademik Ziya Bünyadovun həyat və elmi fəaliyyəti, rəhbəri olduğu elmi tədqiqat işləri, Azərbaycan və xarici dillərdə nəşr edilən kitabları, tərcümələri, məqalələri, görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirlər, haqqında yazılan nəşr nümunələrinin siyahıları təqdim edilib.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazasında “Ölümsüzlüyə qovuşan ömür”, “Akademik Ziya Bünyadov: bizim yaddaşımızda və özgələrinin təsvirində. Hollandiyalı tədqiqatçı Sara Krombaxın dissertasiyası haqqında düşüncələr” kimi bölmələrlə yanaşı, akademikin layiq görüldüyü təltif və mükafatlar, Türkiyə Milli Kitabxanasında qorunan kitabları haqqında məlumatlar da yer alıb. Məlumat bazasında akademikin video və fotoqalereyası və 100 illik yubileyi ilə əlaqədar hazırlanan virtual kitab sərgisi və videomaterial da sərgilənib.

***XQ***

# Yeni ilin işıqlı yolkası

**Hər il olduğu kimi, bu il də Bakının mərkəzi küçələrində bir neçə yolka qurulub. İnsanları bayram əhval-ruhiyyəsinə kökləyən yolkalardan biri də “Azneft” meydanındadır. Fərqli dizayn ilə qurulan yolka zövqlə hazırlanıb.**





Yolka, xüsusilə, axşamlar parlaq görünüşü ilə buradan ötənləri heyran edir. Meydanda dalğalanan üçrəngli Azərbaycan bayrağı isə yolkanın gözəlliyinə gözəllik qatır, onun görünüşünü daha əzəmətli edir.

Paytaxtda, həmçinin qarşıdan gələn əlamətdar gün münasibətilə xüsusi hazırlıq və tərtibat işləri həyata keçirilib. Artıq şəhərin parkları, meydan və küçələri çilçıraqlar və digər bəzəklərlə işıqlandırılıb. İnsanların ənənəvi gəzinti yerlərində – Dənizkənarı Parkda, Fəvvarələr meydanında, digər parklarda və bağlarda da şam ağacları bəzədilib və əvvəlki illərdən fərqli olaraq xüsusi proqram əsasında bayram hazırlıqları görülüb.

Bulvar ərazisində Yeni ilin rəmzlərindən ibarət rəngarəng kompozisiyalar, uşaqların zövqünü oxşayan çoxsaylı oyuncaq evlər də qurulub.

Bütün bunlar, şəhər sakinlərini və qonaqları bayram əhval-ruhiyyəsinə kökləyir.

***Fidan SALMANOVA***
***Elşən AĞALAR (Foto)***
***XQ***

## Sağlamlıq

# Qoymayın, ürək üşüsün...

***Şaxtalı hava ürək-damar sistemi zəif olanlar üçün təhlükə mənbəyidir. Rusiyalı kardioloq Vladimir Xoroşev tranzitor işemik atak və infarkt keçirən xəstələrə xəbərdarlıq edib.***



O deyib ki, şaxtalı havalarda ehtiyatlı olmaq lazımdır. Hipertoniya, ürək xəstəliyi, beyin qan dövranı pozğunluğu olan xəstələrə şaxta neqativ təsir göstərir.

Yaşlı adamlar soyuq havalarda küçədə, həyətdə iş görsələr, məsələn, qar təmizləsələr, damar tutmalarından vəziyyətləri pisləşə bilər. Buna görə də insanlar qar təmizlədikdə, yaxud hər hansı iş gördükdə, şaxtalı havada gəzdikdə 5 dəqiqədən bir fasilə verməlidir. Əgər aktiv hərəkət zamanı zəiflik, spazm, ürəkdə töyşümə yaranırsa, mütləq həkimə müraciət etmək lazımdır.

Ürək problemləri olanlar qışda pilləkənlə, ekskalatorla az çıxıb-düşməli, metrodan istifadə etməməlidir. Eləcə də soyuqdan istiyə, istidən soyuğa qəfil keçmək olmaz.

Evdən çıxanda dəhlizdə biriki dəqiqə dayanıb, bir neçə dəfə dərindən nəfəs alıb vermək tövsiyə olunur.

***Z.HÜSEYNLİ***
***XQ***

# Yer kürəsi Şərqə necə əyilib?

**1993–2010-cu illərdə Yerin qütbü 64,16° Şərq yarımkürəsinə doğru dəyişib. Bu ildə 4,36 santimetr sürətlə baş verib. Geofiziklər bunun yeraltı su kütləsinin yenidən bölüşdürülməsi nəticəsində baş verdiyini müəyyən ediblər. “Geophysical Research Letters” jurnalında dərc edilən yeni araşdırma göstərir ki, insanlar yerdən çoxlu su çıxarıb onu başqa yerlərə köçürüblər.**

Yəni, bir yarımkürədən, digər yarımkürəyə. Nəticədə, Yer təkcə 1993–2010-cu illər arasında, təxminən, 80 santimetr Şərqə əyilib. Bu da göstərir ki, iqlimlə bağlı səbəblər arasında qrunt sularının yenidən paylanması fırlanma qütbünün sürüşməsinə ən çox təsir göstərib.

Hələ 2016-cı ildə suyun Yer kürəsinin fırlanmasını dəyişdirə biləcəyi aşkarlanmışdı, lakin indiyədək bu fırlanma yerdəyişməsində yeraltı suların dəqiq rolu öyrənilməmişdir. Hazırkı araşdırmada geoalimlər Yerin qütb sürüşməsi və suyun hərəkətindəki dəyişiklikləri simulyasiya etmək üçün kompüter modelləşdirməsindən istifadə ediblər. Təsəvvür edək ki, planetimiz zirvədir. Onun iki kənarında iki yarım dolu vedrələr var. Zaman-zaman bir vedrədən su götürülür və ikinciyə



tökülür. Çox tezliklə zirvə tamamilə fərqli bir şəkildə hərəkət etməyə başlayacaq. Eyni şey Yerdə də baş verir.

Buzlaqların əriməsi də təsirsiz ötüşmür.

***PÜNHAN***
***XQ***

## Hava

# Qışın ilk günü yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 5-8°, gündüz 10-15° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 751 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz əsasən dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3338
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00